


# QLOBAL ARAŞDIRMAÇI JURNALİST VƏ İNSAN HÜQUQLARI ŞƏBƏKƏSİNİN AZƏRBAYCANA QARŞI FƏALİYYƏTİNDƏ ERMƏNİ FAKTORU

## (“PANDORA SƏNƏDLƏRİ” ÜZƏRİNDƏN TƏHLİL)

## ANALİTİK HESABAT

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# QLOBAL ARAŞDIRMAÇI JURNALİST VƏ İNSAN HÜQUQLARI ŞƏBƏKƏSİNİN AZƏRBAYCANA QARŞI FƏALİYYƏTİNDƏ ERMƏNİ FAKTORU („PANDORA SƏNƏDLƏRİ" ÜZƏRİNDƏN TƏHLİL)

## ANALİTİK HESABAT

**Müəllif:**
Tahirə Allahyarova
professor

Bakı - 2021

**Redaktorlar:**
Aqşin Məmmədov
Elnur Çıraqov

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:**(+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

# XÜLASƏ-ANNOTASİYA

Analitik hesabatda qlobal "araşdırmaçı jurnalist və insan hüquqları" şəbəkəsində son onillikdə baş verən proseslər, ölkəmizə qarşı pozucu fəaliyyətində yeni metodlar, meyillər, məqsədlər, aktorlar və icraçılar təhlil edilib. Mövcud yeni geosiyasi reallıqda qlobal güclərin təzyiq aləti kimi çıxış edən bu şəbəkənin informasiya inqilabının ən son texnoloji imkanlarından istifadə etməklə, müstəqil Azərbaycan dövlətini başlıca hədəflərindən biri kimi müəyyən etməsinin səbəbləri göstərilib.

Son otuz ildə Qarabağ və Ermənistanın siyasi korrupsiya rejiminə milyardlar ayıran dünya erməniliyinin Qarabağda məğlubiyyətdən sonra bütün gücünü qlobal araşdırmaçı insan hüquq-müdafiə təşkilatlarına sızmaq üçün səfərbər etməsi hesabatda faktlarla əksini tapıb. Onların əsas məqsədi - Azərbaycan dövlətinin imicinin beynəlxalq aləmdə hibrid informasiya müharibəsi və saxta xəbərlərlə "demonizasiyası", informasiya məkanında nüfuzdan salmağa cəhd etməsi, xaricdəki vətən xainlərini və ölkə daxilində 5-ci kalonu səfərbər etməklə ictimai rəyi manipulyasiya etməsi, Zəfərimizin təməl şərtlərindən olan ictimai-siyasi sabitliyimizi pozmaq yönündə yeni üsullara əl atması ətraflı təhlil edilib.

Analitik araşdırmada ortaya qoyulan qlobal anti-Azərbaycançı şəbəkənin miqyası, bir tərəfdən, dünya güclərinin dəstəyinə, bütün ölkələrdə dayaq nöqtələrinə, yüksək mütəşəkkilliyə, nəhəng siyasi, iqtisadi, texnoloji resurslara malik olması fonunda xalqımızın Vətən müharibəsində qazandığı Zəfərin möcüzəyə bərabər strateji əhəmiyyətini, tarixi dəyərini bütün möhtəşəmliyi ilə sübut edir.

Digər tərəfdən, mövcud vəziyyət bütün potensial və resurslarını yüz dəfələrlə artırmaqla revanş götürməyə cəhd edən məğlub qüvvələrin apardığı və planlaşdırdığı yeni təhdidlərə bizim hər zaman hazır olmağımızı, çevik və anında veriləcək cavab addımlarının atılması ilə bağlı fəaliyyət həyata keçirməyimizi diktə edir.

Araşdırmada Vətən müharibəsində döyüş meydanında məğlubiyyətdən sonra bütün gücünü informasiya müharibəsinə səfərbər edən "qlobal erməni milləti" faktoru konkret şəxslər və təşkilatlar nümunəsində əksini tapıb. "Pandora sənədləri" üzərindən dünya ermənilərinin Azərbaycana qarşı çoxşaxəli fəaliyyətinin daha da genişlənməsi, araşdırmaçı şəbəkənin rəhbərliyi və üzvləri sırasına sızmaları təhlil edilib. Hesabatda "insan hüquqları" sahəsində beynəlxalq təşkilatların Azərbaycan əleyhinə qərəzli münasibətinin dərindən araşdırılması, erməni faktorunun burada da kök salması, maskalanması və olduqca fəallaşması faktlar əsasında göstərilib.

Ermənistanın yeni bəyan etdiyi milli rebrendinq - "Ermənistan kiçik dövlət, qlobal millətdir" devizini həyata keçirmək yönündə sözügedən qlobal şəbəkədə Vətən müharibəsində sarsıdıcı məğlubiyyətdən sonra dünya erməniliyinin: ermənilər; erməni diasporu; çoxsaylı ölkələrdəki 2-3-cü nəsil ermənilər; Ermənistanın dostu olan ölkələr və erməni diasporu muzdlularının revanşizm strategiyası ətrafında səfərbər olması planının olduqca intensiv fazaya daxil olması əsaslandırılıb.

*“İnformasiya mübarizəsi indiki şəraitdə hesab edirəm ki, prioritet məsələlərdən biridir. Biz internet və qloballaşma dövründə yaşayırıq və bütün müasir imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Onu da qeyd etməliyəm ki, Azərbaycanla bağlı olan bəzi informasiyalar, biz onu yaxşı bilirik, həqiqətə uyğun deyildir. ...Bəzi dairələr Azərbaycana qarşı böhtan, iftira kampaniyası aparırlar. Bunun da səbəbi var və burada, əlbəttə ki, təkcə erməni lobbisindən söhbət getmir, halbuki bu kampaniyanın arxasında daha çox onların qulaqları görsənir. Ancaq bütövlükdə biz bilirik, kim nə üçün nəyi yazır, hansı məqsədlə və nə vaxt. Əgər ölkəmizin həyatında və ətrafda gedən proseslərə nəzər salsaq görərik ki, artıq Azərbaycanla bağlı olan mənfi məlumat bölgədə gedən müəyyən vacib hadisələrlə uzlaşır. Bunu biz bilirik, görürük və buna qarşı mübarizə aparmalıyıq".*

*...Azərbaycana qarşı böhtan kampaniyasının da əsas səbəbi ondan ibarətdir ki, ölkəmiz müstəqil siyasət aparır, heç kimin qarşısında baş əymir, heç kimin sözü ilə oturub-durmur, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutur”.*

*“Azərbaycan informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Biz buna adekvat cavab verməliyik. Azərbaycan xalqı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq”.*

*“Aydındır ki, bu, jurnalist araşdırması deyil. Məlumdur ki, bunun arxasında kim dayanır. Aydındır ki, nəyə görə Azərbaycanın da adı çıxır”.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# MÜNDƏRİCAT

**I FƏSİL. ARAŞDIRMAÇI JURNALİSTİKA: YARADILMASI VƏ QLOBAL ŞƏBƏKƏYƏ ÇEVRİLMƏSİNİN MƏQSƏDLƏRİ, AKTORLARI, HƏDƏFLƏRİ**..........8

- GİRİŞ: Saxta xəbərlər (fake news) informasiya savaşının episentri kimi. 2021-ci ilin oktyabr ayı - informasiya geosiyasətində yeni epoxanın ilk sınağı......9
- Yeni informasiya strategiyasının mahiyyəti..........10
- "WikiLeaks" layihəsinin təkan verdiyi qlobal şəbəkə: Culian Assancdan Edvard Snoudenə - "araşdırma, sızdırma və tirajlama" mexanizmi necə yaradıldı?.........11
- ABŞ-da ölkədaxili araşdırmalardan xarici ölkələrə yönələn qlobal araşdırmaçı şəbəkəyə keçid necə baş verib?..........15
- Amerikanı hədəfə alan "Pentaqon sənədləri"ndən xarici hədəfli ofşor sənədlərinə gələn yol..........16
- Araşdırmaçı jurnalist şəbəkəsinin xronikası..........17
- Araşdırmaçı jurnalist şəbəkəsinin xüsusiyyətləri..........18
- ABŞ-ın xarici ölkələrdə xüsusi sifarişlə işləyən jurnalist dəstələrinin - "araşdırmaçılar"ın qlobal şəbəkəsinin yaradılmasına necə başlanıldı?................19
- Azərbaycanlı jurnalistin qlobal şəbəkənin (OCCRP) direktoru təyin edilməsi və dövlətimizin əsas hədəflər sırasına daxil edilməsi..........20
- "Antikorrupsiya" dosyeləri və ofşorlara hücumlar silsiləsinin başlaması..............29
- Nə üçün Azərbaycan? Milyardların xərcləndiyi qlobal şəbəkənin əsas hədəflərindən biri dövlətimizdir..........30
- Ofşor "araşdırmalarının" siyasi, iqtisadi, hüquqi, geosiyasi aspektləri və nəticələri......36
- Əlavələr..........41

**II FƏSİL. QLOBAL "ARAŞDIRMAÇI" ŞƏBƏKƏDƏ ERMƏNİ FAKTORU: "PANDORA SƏNƏDLƏRİ"Nİ SIZDIRAN KONSORSİUMUN (ICIJ) RƏHBƏRLİYİ VƏ HEYƏTİNDƏKİ ERMƏNİLƏR**..........44

- Giriş..........45
- Ermənilər "Pandora sənədləri"ni açıqlayan qlobal jurnalist konsorsiumunda (ICIJ) rəhbərliyə qədər "irəliləyib"..........46
- Jurnalistika adı altında transmilli kiberordunun, informasiya terrorunun yeni formasını təşkilatlandıran fransalı erməni..........52
- Qlobal araşdırmaçı şəbəkə üç ayrı təşkilat (OCCRP, ICIJ, GIJN) görüntüsü yaratsa da, əslində bir təşkilatda - OCCRP-də cəmləşir. Burada ermənilərin sayı nə qədərdir?..........53
- "İblisin vəkilləri". Hibrid müharibənin yeni növü: insan hüquqları, ifadə azadlığı və s. ilə bağlı "məhkəmə müharibələri"nin (Lawfare, judicial warfare) başında duran təşkilatlardakı ermənilər..........55
- "Sərhədsiz Reportyorlar" (RSF) - mənəvi sərhədi olmayan "insan hüquqları" şəbəkəsinə axan Fransanın dövlət büdcəsi və erməni maliyyəsi..........59

**III FƏSİL. “İNSAN HÜQUQLARI, DEMOKRATİYA VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ” APARAN 10-A YAXIN BEYNƏLXALQ TƏŞKİLATIN ERMƏNİ RƏHBƏRİ**......64

- Qlobal insan hüquqları müdafiəsinin Harri Kasparova tapşırılması......65
- Kasparovun “İnsan Hüquqları Fondu”nun (ABŞ) və “Oslo Azadlıq Forumu”nun (Norveç) Azərbaycanla bağlı fəaliyyəti......70
- Türkiyənin hədəfə alınması Kasparovun qlobal dəstəsinin əsas vəzifəsidir......75
- Kasparovun Fondu “Azərbaycanın hərbi cinayətləri. Hadrut edamı” adı ilə saxta videomaterial hazırlayan “Bellingcat” özəl kəşfiyyat şəbəkəsinin sponsorudur......78
- Kasparovun insan hüquqları, demokratiyanın müdafiəsi sahəsində fəaliyyətə gətirdiyi yeniliklər və onun mümkün təhdidləri......81
- Kasparovun 5-ci kalonu maliyyələşdirmək üçün virtual-rəqəmsal valyutanın tətbiqi sahəsində qlobal təşəbbüsləri......83
- Kasparovun dünya yəhudi diasporu ilə sıx əlaqələr qurması, İsraildə “düşüb qalması” və Azərbaycan üçün nəticələri......87
- Qlobal “Kasparov Fondları” ölkəmizi hədəfə alan dünya erməniliyinə xidmət edir......89
- UNESCO və Azərbaycan. “Sərhədsiz Reportyorlar”ın sponsoru olan təşkilat son illər nə üçün Azərbaycana qarşı dönük çıxıb?......91
- Odri Azulay UNESCO-ya necə gəlib çıxıb? Yaxud Fransanı idarə edən “qızlar”......95
- Əlavələr......99

**IV FƏSİL. “ARAŞDIRMAÇILARIN” MEQA-SPONSORU: PYER (PƏRVİZ MURAD) OMİDYAR. QLOBAL AKTİVİZM VƏ KİBER-İNQİLAB ŞƏBƏKƏSİNİN ARXİTEKTORU. OMİDYAR AİLƏSİNİN ERMƏNİ KÖKLƏRİ**......100

- e-Bay-in yaradıcısı Pyer (Rərviz Murad) Omidyar - CIA işbirliyinə start verilməsi, qlobal araşdırmaçı şəbəkənin yaradılması......101
- Omidyar yeni qlobal etiraz, aktivizm və kiber-inqilab şəbəkəsinin banilərindəndir......104
- Omidyar “qlobal araşdırmaçı jurnalist” şəbəkəsinin yaradıcısı və himayədarıdır......106
- “Luminate” fondunun Azərbaycanı hədəfə alan OCCRP və ICIJ üçün maliyyəsi: rəqəmlər və statistika......108
- Pyer Omidyarın fəaliyyətində yeni istiqamət: Omidyar-Hollivud əməkdaşlığı......112
- Əlavələr......113

- **EPİLOQ ƏVƏZİ: Öz adını özgəsinə qoymaq**......114

- **NƏTİCƏ**......115

# I FƏSİL.

## ARAŞDIRMAÇI JURNALİSTİKA: YARADILMASI VƏ QLOBAL ŞƏBƏKƏYƏ ÇEVRİLMƏSİNİN MƏQSƏDLƏRİ, AKTORLARI, HƏDƏFLƏRİ

## GİRİŞ: Saxta xəbərlər (fake news) informasiya savaşının episentri kimi

**2021-ci ilin oktyabr ayı - informasiya geosiyasətində yeni epoxanın ilk sınağı**

Cari ilin oktyabrında dünya gündəmini zəbt edən ardıcıl hadisələr baş verdi. Hazırda da davam edən bu proseslərin sıx bağlılığı, məqsədi və nəticələri dərin təhlil tələb edir:

1. Yeni ofşor məlumat sızıntısının – "Pandora sənədləri"nin (Pandora papers) açıqlanması;

2. Eyni gündə qlobal sosial şəbəkələrin (Facebook, Tvitter, Instagram) çökməsi;

3. Gündəliyə yeni informasiya bombası – "Facebook sənədləri"nin (Facebook papers) atılması. Facebook daxilində "xanım Snouden"in (!) - dezinformasiya ilə mübarizə üzrə aparıcı menecer çalışmış Frensis Haygenin peyda olması;[1] Mark Zukerberqin baş verənləri "dünya media şəbəkəsinin şirkətini nüfuzdan salmaq cəhdi" adlandırması;

4. Son 40 ildə Nobel Sülh mükafatının 2-ci dəfə jurnalistlərə - Mariya Ressa və Dmitri Muratova verilməsi, onların total təbliği;

5. Qlobal güclərin son 30 ildə reallaşdırdığı informasiya siyasətinin radikal yenilənməsinə dəlalət edən korporasiyanın yaradılması. Oktyabrın 26-da "Silikon vadisi", yeni inqilablar, sosial hərəkatlar və s. sahələrin meqa-donorları olan qlobalist milyarderlərin - R.Hoffman (Linkedİn-in yaradıcısı), P.Omidyar (eBay-in yaradıcısı və PayPal-ın sahibi), Soros (Açıq Cəmiyyət İnstitutu), Laura Cobs (Stiv Cobsun həyat yoldaşı), "Ken&Jen Duda" ("Silikon vadisi"nin investorları) və başqa maliyyə maqnatları, xarici siyasi müdaxilə institutları (USAID, NED, NDI), insayderlər və s. bir araya gələrək, "dezinformasiya ilə mübarizə aparmaq üçün **"Yaxşı informasiya" (Good Information Inc.) Media Korporasiyasını** təsis etdilər. Məqsəd, sitat: "xaricdə və daxildə yaşanan informasiya böhranını həll etmək yönündə informasiya müharibəsi əməliyyatlarının aqressiv tətbiqini vahid mərkəzdən maliyyələşdirmək və idarə etmək, Amerikanın təhlükəsizlik və imperiya maraqlarını təmin etməkdir.[2]

Təsisçilər təşkilatın yaradılmasının zəruriliyini "Amerikanın informasiya böhranına qərq olması" ilə əsaslandırırlar. 2016-cı il prezident seçkilərindən sonra Amerika cəmiyyətində baş verən dərin siyasi, ideoloji, mədəni, etnik-irqi parçalanma, vətəndaş qarşıdurması həddində "Qaraların Həyatı




[1] Facebook veteranı F.Haygen şirkət daxilində xaosu, son seçki prosesində Donald Trampa qarşı mütəşəkkil təbliğatı, milyardlarla istifadəçi məlumatını satmaqla "qul bazarı" formalaşdırma, istənilən sosial aksiya-hərəkatı tətikləmə, yaxud görünməz etmə, Instagram-ın yeniyetmələrin evlərdə hədəfləyib psixikasına sarsıdıcı təsir və s. ilə bağlı "aqressiv moderasiya" siyasətini sübut edən sənədlər ələ keçirib. Hazırda o, ABŞ Konqresi, Ali Məhkəməsi, İngiltərə Parlamenti qarşısında ifadələr verir. Bu qurumları şirkətin üzərində nəzarətin vacibliyinə inandırmağa çalışır.

[2] Exclusive: Billionaires back new media firm to combat disinformation // https://www.axios. com/soros-hoffman-disinformation-tara-mcgowan-b1e7c-b89-a4f7-4281-8e-0a-3877fe8a3944.html

Önəmlidir" ( Black Lives Matters) qiyam və aksiyalar və s. hadisələr böhranın təzahürü kimi qeyd edilir.

Böhranın sübutu kimi **185 milyon amerikalının ənənəvi mediaya etibar etmədiyi, 96 milyon amerikalının seçkilərin nəticələrinin oğurlandığına inanması, 89 milyon amerikalının seçki saxtakarlığını ən böyük problem adlandırması, 264 milyon amerikalının öz ştatının qubernatorunun adını bilməməsi və s. sosioloji sorğuların nəticələri göstərilir.** Saytın ilk səhifəsində informasiyanın "yaxşı, pis, yalan, təhlükəli, yanlış, saxta, qərəzli (dezinformasiya), təkzib edilmiş" kimi növləri sərgilənir.[3]

Təşkilatın rəhbəri Demokratlar Partiyasının strateqi, D.Trampın məğlub olması üçün 100 milyonluq informasiya kampaniyasını uğurla sonlandıran Tara Makqouen (Tara McGowan) təyin edilib. Dezinformasiya texnologiyalarını maliyyələşdirən şəxslərin bu sahədə "mübarizə üçün" birləşməsi "təbəssümlə" qarşılansa da, artıq prosesə start verilib. Qlobal informasiya məkanını bir mərkəzdən idarə edəcək strategiyanın ilk sınaqları  baş tutmuş sayıla bilər.


Glenn Greenwald
@ggreenwald

All three of these billionaires -- Soros, Hoffman and Omidyar -- fund groups and outlets that aggressively spread disinformation. The idea that *they* are going to use their vast wealth to police the internet in the name of keeping us safe is laughable.

Oktyabr ayında ABŞ-ın artıq taqətsiz olan Culian Assancın ekstradisiyası üçün Londonda yenidən məhkəməyə başlaması fonunda "araşdırmaçı jurnalist"lərin öz həmkarına münasibətdə "məzar sükutu" da gözdən qaçmadı.

## ➪ Yeni informasiya strategiyasının mahiyyəti

Sözügedən proseslər, ABŞ-ın nəhəng sosial şəbəkələrə, qlobal informasiya məkanına nəzarət etməyi hədəfləyən yeni strategiyanı gerçəkləşdirməyə yönələn, dolayısı ilə amerikalıların ölkədaxili informasiya böhranından diqqətini kənara yönəltməyə hesablanan  həlledici addımı, "baş məşqi" hesab edilə bilər.

Sirr deyil ki, milli dövlətlərin rəqəmsal informasiya suverenliyini parçalayaraq, özlüyündə "müstəqil virtual dövlətlərə" çevrilən (D.Trampı cəmi bir saatda siyasi məkanda yox edən) IT şirkətlərinin ram  etdirmə yolları son onillikdə ən ciddi şəkildə axtarılır. Səbəblər olduqca çoxşaxəlidir, bəzilərini qeyd edək:

• **Siyasi səbəblər:** dövlətlərin daxili işlərinə, sosial etiraz hərəkatlarına, seçki proseslərinə total nəzarət, qeyri-sabitlik ixracı ilə rejim dəyişdirməyə, müstəqil iqtidarlara geosiyasi təzyiq proseslərini daha səmərəli etməyə ("bir kliklə" həll etməyə) imkan verən informasiya müharibəsi mexanizmini reallaşdırmaq;

• **İqtisadi səbəblər:** texnoloji nəhənglərin qlobal maliyyə-iqtisadi, pandemiya və s. böhran  bilmədən, ilbəil həndəsi silsilə üzrə artan, trilyon rəqəmlərlə ölçülən  gəlirlərinə, reklam bazarına nəzarət etmək, ən azı  ortaq olmaq;

• **Sosial-mədəni səbəblər:** birtərəfli yönəldilən informasiya axını ilə milli kimlikləri zəiflətmək, kosmopolit, multi-identik qlobal vətəndaş tipini formalaşdırmaq.

[3] "Yaxşı informasiya" korporasiyasının saytı: https://goodinfo.us/

Sözügedən strategiyanı reallaşdırmaq üçün ABŞ siyasi rəhbərliyi əvvəlki əsrlərdə mövcud olan “Parçala və hökm sür” (Divide and rule; lat. Divide Et İmpera) imperiya siyasətini rəqəmsal əsr üçün yeniləyib. ABŞ-ın milli təhlükəsizliklə bağlı məxfi sənədlərində yeni informasiya strategiyası kimi bəyan edilən “Hack, Dump, Divide.” devizidir. **Azərbaycan dilində onu belə ifadə edə bilərik: “Sındır, Sızdır, Parçala.”**




### ⇨ “WikiLeaks” layihəsinin təkan verdiyi qlobal şəbəkə: Culian Assancdan Edvard Snoudenə - “araşdırma, sızdırma və tirajlama” mexanizmi necə yaradıldı?

“Pandora sənədləri” açıqlanandan sonra qlobal media cameəsi bu məsələyə Edvard Snoudenin münasibətini öyrəndi. Hər halda bu şəxs Culian Assancdan sonra “informasiya sızdırma” qalmaqallarının ilk “müəlliflərindən” sayılır. E.Snouden bu “qalmaqallara” münasibətini istehza və sarkazmla ifadə etdi. Sitat: “Bu çox ciddi hekayənin yumoristik tərəfi ondan ibarətdir ki, ofşorlardakı maliyyə/hüquq firmalarından iki apokaliptik sızmadan *("Panama" və "Paradise" nəzərdə tutulur - **red.**)* sonra belə, bu sahələr hələ də nəhəng “məlumat xarabalığını” təşkil edir, onlar hələ də “Sızdırma!” lövhəsi ilə qorunur”.

2000-ci illərin əvvəllərindən dünya məxfi sayılan nəhəng informasiya sızmaları - meqa-sızıntılar (mega-leaks) erasına qədəm qoydu. “WikiLeaks” layihəsinin işə başlaması ilə Culian Assanc informasiya sızmasında inqilab edən şəxs kimi tarixə düşdü. “WikiLeaks” layihəsi ABŞ siyasi rəhbərliyi, ordusu, hərbi-sənaye kompleksi, İraqda müharibə və s. ilə bağlı faylları adsız serverlərdən kütləvi məlumat tullantısı kimi əldə etmiş və tirajlamışdı. Ona həsr olunan anonim məlumat sızmasının tarixi və gələcəyi ilə bağlı kitablar-



dan biri "Bu maşın sirləri öldürür" (This Machine Kills Secrets) adlanır. Bu əsər başlamaqda olan yeni eranın xüsusiyyətlərindən bəhs edir.

C.Assancın haker kimi qaçaq karyerası, dünyanı sarsıdan fiqura çevrilməsi, onun həbs edilərək çökdürülməsi və eyni zamanda siyasətçi, dissident/jurnalist kimi yüksəlişi ABŞ-ı ciddi düşünməyə vadar etdi.

İnformasiya savaşının texnoloji inqilab sayəsində yeni mərhələyə qədəm qoyması, bu istiqamətdə ciddi planlar hazırlayan ABŞ dövlətini özünün nüfuzuna böyük zərbə vuran “WikiLeaks” layihəsini həm də düzgün dəyərləndirməsinə kömək etdi. Nəticədə ABŞ həmin formatda yeni informasiya sızıntı/layihələri yaratmaqla dünyaya geosiyasi təzyiq vasitəsi kimi tətbiq etməyə qərar verdi. ABŞ xüsusi xidmət orqanlarının ən kiçik detalı belə nəzərə alaraq təfərrüatlı şəkildə hazırladığı, texnoloji vasitələrin xüsusi tətbiqi ilə reallaşdırılacaq yeni layihənin adı hazırda “sızdırılmış məlumatları açıqlayaraq informasiya bombaları partladan araşdırmaçı jurnalistika” oldu.

Bu fəaliyyətin reallaşdırılması texnoloji inqilabın ön cəbhəsində çalışan fiqurlarla yanaşı, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ilə əməkdaşlıq edən, mediada tanınmış ada malik olan çoxsaylı aktorlardan ibarət sistemin qurulmasını tələb edirdi. “WikiLeaks” nümunəsində getdikcə inkişaf edən sızdırma, sındırma (hack), kiberizləmə (surveliance) və s. texnologiyalarla ABŞ-ı hədəfə alanlara, eləcə də getdikcə sərhədsiz imkanlara malik olan texnoloji IT nəhənglərinə qarşı durmaq yalnız onların bənzərini yaratmaqla mübarizə aparmaq mümkün ola bilərdi.

Beləliklə, “WikiLeaks” qalmaqalından sonra ABŞ-da məhz belə fiqurlarla - tech-milyarder, Vaşinqton siyasi rəhbərliyi, Mərkəzi Kəşfiyyat İdarəsi, media şəbəkəsi, kibertəhlükəsizlik, izləmə və hakerlik texnologiyaları sahəsində ən qabaqcıl laboratoriyalarla işbirliyinin qurulmasına nail olundu.

Yeni layihənin texnoloji tərəfini təmin edən fiqur qismində kiberinqilab və total nəzarət dünyasının yaranmasını praktiki-texnoloji həllər və maliyyə baxımından dəstəkləyənlər arasında ilk sırada duranlardan biri, 1995-ci ildə dünyada internet üzərində ilk hərrac/ticarət saytının - eBay-in yaradıcısı Pyer Omidyar tərəfdaş kimi seçildi. *(Omidyar haqqında məlumat müvafiq bölmədə verilir- **red.**)*

Qısa təsvir etsək, artıq C.Assanc kimi müstəqil deyil, dövlətin sponsorluq etdiyi, yönəltdiyi yeni qalmaqal yaratmaq və sınaqdan çıxarmaq məsələsində əvvəlcə Eduard Snouden işi quraşdırılır. Budəfəki sızma ilə bağlı elə görüntü yaradılır ki, guya Milli Təhlükəsizlik Agentliyinin (MTA-NSA) əməkdaşı E. Snouden çalışdığı quruma məxsus faylları şəxsi əqidə və etiraz səbəbindən yayıb. Əslində, yayılan sızmanın mənası elə də böyük deyildi: “ABŞ xüsusi xidmət orqanları vətəndaşları izləyir”. Təbii ki, reallıqda bunu bilməyən yox idi. Analitiklər bununla bağlı sarkazmla yazırdı ki, Snouden prestijli yerdə ildə 200 min dollar maaş aldığı işini, bahalı evini, tanışlarını qurban verdi ki, desin: “...dövlət bizi izləyir”. E.Snouden “tamaşasında” ilginc olan yalnız bu olmayıb, onun tərcümeyi-halında da kobud uyğunsuzluqlar əksini tapıb. Onun Milli Təhlükəsizlik Agentliyində çalışmaması, ümumiyyətlə, orduda xidmət etməməsi və s. barədə çoxsaylı dəlillər aşkara çıxarılıb.

Reallıqda məsələ ABŞ rəhbərliyinin yeni informasiya geosiyasətini “WikiLeaks” qalmaqalları formatında relslər üzərinə qoyması və sınaqdan çıxarması, ən mühüm məqsəd isə, nəhayət, Amerikanın nüfuzuna güclü zərbə vuran “WikiLeaks”i arxa plana keçirməklə təqib etdiyi və həbs etməyə çalışdığı Culian Assancı unutdurmaq idi. Bu məqsədlə E.Snoudenin sızdırdığı informasiyanı “təhvil alıb” tirajlamaq üçün müvafiq media-informasiya orqanı yaradılmalı idi ki, proses davamlı ənənəyə çevrilsin. Dünya ictimai rəyi vaxtaşırı

Snowden threw away his $200,000 yearly salary, his sexy pole-dancer girlfriend, and his comfy home in beautiful Hawaii just to tell the world that the government is spying on us - duh! Here is Ed Snowden's sketchy legend filled with red flags, alarm bells, sirens and flashing lights even for half-wits.

**FIRST.** In 2003, at age 19, without even a high school diploma, Snowden enlisted in the Army and began a training program to join the Special Forces. How exactly did an uneducated newly enlisted 19 year old soldier get into this elite training program?

Snowden reportedly broke both legs during a Special Forces training exercise and got discharged from the Army. Why was he discharged? If he was accepted into the Special Forces training program because he had special self-taught computer whiz skills, then why discharge him over broken legs? Did they say to him, "Sorry, Ed, but with two broken legs we just don't think you can hack into terrorist data anymore. Try Walmart. They always have openings."

"sızdırılacaq" sənədləri gözləsin, müxtəlif ölkələrdə zənginlər, siyasətçilər, iş adamları davamlı "qorxu" altında olsun, adlarının buradan çıxmaması üçün təzyiq alətlərinə çevrilsin. Dolayısilə güclü informasiya hücumu vasitəsilə ictimai etirazları körükləmək, iqtidarları devirmək mümkün olsun.

ABŞ xüsusi xidmət orqanları və media arasında halqa olacaq şəxs kimi Pyer Omidyar (Pierre Omidyar) (erməni əsilli, Fransa doğumlu iranlı) müəyyən ediləndən sonra analoji "qalmaqallı" media şəbəkəsinin yaradılması ona tapşırıldı. Omidyar informasiya sızmalarını açıqlamaq və qeyri-standart media orqanı yaratmaq məqsədilə yaxın əhatədə jurnalist axtarışına başladı. Bu məqsədlə "İlk baxış mediası" (First Look Media) agentliyini yaradan Omidyar bura külli miqdarda maliyyə yatırsa da, nəticə ürəkaçan olmadı.

Nəhayət, "WikiLeaks" təəssüratını unutdura biləcək media orqanının yaradılması yönündə axtarışlar nəticəsini verdi. Belə ki, "The Guardian" nəşrində çalışan tanınmış jurnalist Qlen Qrinvald və İraqda müharibə, həmçinin Quantanamo həbsxanası ilə bağlı sənədli filmlərin müəllifi Laura Poitras tərəfindən simvolik adda "The Intercept" ("Ələkeçirmə", "Перехват") adlı media orqanı yaradıldı. Pyer Omidyar bu kiçik media agentliyinə 250 milyon dollar maliyyə ayırdı. Analitiklər yekdil qənaətə gəldilər ki, E.Snoudenin "əldə etdiyi" sızma fayllar planlı şəkildə Pyer Omidyara təqdim edilib, onun tərəfindən "özəlləşdirilib". Bu məqsədlə yaradılan mediada silsilə yazılar dərc ediləcək.

Eyni vaxtda artıq Honq Konqa qaçaraq otel otağında yaşayan E.Snouden "yuxarıdan" tərtib edilən plana uyğun olaraq, bu şəxslərə anonim "Citizenfour" imzası ilə məktub göndərdi, məxfi məlumatları paylaşmaq istədiyini bildirdi.

**1) Pierre Omidyar** is "a French-born Iranian American entrepreneur and philanthropist, who is the founder and chairman of the **eBay** auction site. A billionaire at 31..." who is financing **journalist Glen Greenwald**.

**2) Glen Grenwald** is the journalist who was given a treasure trove of secret US files stolen from the CIA/NSA by analyst, **Edward Snowden**!!

**3) Edward Snowden** is a Spy maybe - and/or a Psyop maybe.

**HAŞİYƏ:** Bu sxem bundan sonra ABŞ-ın yeni informasiya geosiyasətinin - "araşdırmaçı jurnalistlərin ofşor qalmaqalının dəyişməz mexanizmini" təşkil etdi. Yəni anonim mənbə özündə sızdırılmış məlumatların olmasını xəbər verir və təqdim edir.

Beləliklə, Omidyarın yaratdığı media orqanının rəhbəri Q.Qrinvald Hon-Konqda otel otağından Snoudenlə silsilə reportajlar hazırlamaqla onun şöhrətini təmin etdi. Açıqlanan məxfi sirr ondan ibarət idi ki, ABŞ Milli Təhlükəsizlik Agentliyi hər gün özünün və başqa ölkələrin "100 milyonlarla telefon zənglərini izləyir".

> "What all this adds up to is a journalistic conflict-of-interest of the worst kind: Omidyar working hand-in-glove with US foreign policy agencies to interfere in foreign governments, co-financing regime change with well-known arms of the American empire — while at the same time hiring a growing team of soi-disant "independent journalists" which vows to investigate the behavior of the US government at home and overseas, and boasts of its uniquely "adversarial" relationship towards these government institutions.

Düşünülmüş "Sındır və sızdır" layihəsi uğurla sınaqdan keçirildi. "WikiLeaks"in gündəmdən çıxarılmasına nail olundu. Jurnalist Q.Qrinvald 2013-cü ilin "100 qlobal mütəfəkkirindən biri" adlandırıldı. O, Snoudenlə bağlı "Gizlənəcək yer yoxdur" kitabını da yazdı. Bunların hamısı "yuxarıdan" verilən tapşırıqlarla icra edildi. Hətta Snouden haqqında çəkilən film (Citizenfour) Oskar mükafatına namizəd göstərildi. Lakin bu günə qədər Snouden ortada olsa da, nə həbs edilib, nə də tutulub. Bunun əksinə, məlumat sızdırmaqla ABŞ-ın hərbi cinayətləri ilə bağlı sənədləri açıqlayan ilk jurnalist Culian Assanc hələ də həbsdədir. Bu gün də ABŞ London məhkəməsində artıq taqətdən düşən Assancı aparmaq üçün keşik çəkir. Amerika hələ də jurnalisti cəzalandırmaq üçün geri istəyir və Prezident Bayden onun məhkəməsi keçirilən Londona ABŞ Ədliyyə Nazirliyinin böyük heyətini göndərib. Həqiqət bu qədər sadədir.

E.Snouden nümunəsində "mega leaks" sızıntıları sınaqdan keçirildikdən sonra ABŞ bu layihəni davamlı ənənəyə çevirmək məqsədilə "Qlobal Araşdırmaçı Jurnalist Şəbəkəsi" adlanan təzyiq mənbələrini təsis etdi. Onların sırasında ən mühümü, fəaliyyətində Azərbaycana "xüsusi" yer verən OCCRP (Organized Crime and Corruption Reporting Project [4]) müəyyən edildi. Digər ikisi - ICIJ (International Consortium of Investigative Journalists [5]) və GIJN (Global Investigative Journalism Network [6]) bu sahədə guya müxtəlif təşkilatların olması, məlumat mənbələrinin müxtəlifliyi görüntüsünü yaratmaq üçündür.

Texnoloji inqilabın görünməmiş inkişafı jurnalist adı altında hakerlik fəaliyyətini reallaşdıran, "informasiya brokerləri", "informator", "araşdırmaçı" adlanan, işləri informasiyanı qeyri-qanuni yolla ələ keçirməklə açıqlamaq olan bütöv bir təbəqəni formalaşdırıb. "Silikon vadisi"ndə texnoloji şirkətlər, izləmə sistemləri və data brokerləri sizi izləmək üçün gücləri birləşdirir" adlı yazıda bu prosesin məzmunu ifadə edilib.[7]

Xəbər mediasına "oğurlanmış" məlumatların necə daxil olması, xüsusilə də "oğurlanmış informasiyanı ictimailəşdirənlərin kimlərin marağına xidmət etməsi" ictimai rəydə məntiqi və mürəkkəb suallar ortaya çıxarıb. Buna cavab verməkdə öhdəliyi olmadığı şəraitdə informasiya bombası işə düşür və

[4] https://www.occrp.org/

[5] https://www.ICIJ.org/

[6] https://gijn.org/

[7] How Tech Companies, Surveillance Outfits, and Data Brokers Join Forces to Watch YouIn Silicon Valley, data is the new oil. //https://www.motherjones.com/politics/2013/10/tech-companies-online-surveillance-nsa/


Glenn Greenwald
@ggreenwald

Joe Biden sent his DOJ lawyers to a UK courtroom today to demand that one of our generation's most consequential journalists be kept in harsh prison conditions, as his health deteriorates, to be prosecuted for his reporting.

But at least Biden doesn't post rambunctious tweets.


WIKILEAKS

US Asks UK Court for Permission to Extradite Wikileaks' Julian Assange

A lower court judge refused an American request to extradite Assange on spying charges over WikiLeaks' publication of secret military documents a decade ago

AP Photo/Frank Augstein

müəyyən ölkələrdə effekt verərək qeyri-sabitliyi körükləyə bilir.

“Pandora sənədləri”ni açıqlayan araşdırmaçı şəbəkə ilə “WikiLeaks” arasındakı fərq məsələsində birincini ABŞ dövlətinin, ikincini isə C.Assancın özünün müstəqil yaratması ilə bağlı çoxsaylı təhlilçilər də eyni qənaətdədir.

### ➪ ABŞ-da ölkədaxili araşdırmalardan xarici ölkələri hədəfə alan qlobal araşdırmaçı şəbəkəyə keçid necə baş verib?

Ölkədaxili problemləri əhatə edən araşdırmaçı jurnalistika bir janr kimi Amerikada yaranıb. Prezident Teodor Ruzvelt jurnalistlərlə söhbətində (1906-cı il) hər şeyi yalan və qara tonda yazanları “muckraker” (palçıq, zibil eşənlər) adlandırıb. Terminin taleyi uğurlu olub. Bu gün də “muckraker” və “investigative” sözləri sinonim olub, “araşdırmaçı jurnalist” deməkdir.[8] Media tədqiqatçısı Anya Şifrin (Anya Schiffrin) araşdırmaçıları “Səlibçi jurnalistlər” (Crusading journalists) adlandırıb. Sitat: “Səlibçi jurnalistlər Amerika siyasətində əsas rol oynayıb”.[9]

Mövcud olduğu yüz ildə yalnız yarandığı ölkənin - ABŞ-ın problemlərini əhatə edən araşdırmaçı jurnalistika ötən əsrin sonlarında tamamilə yenidən “doğulub”. Ayrı-ayrılıqda çalışan azsaylı jurnalistlərin təşkilatlandırılmasına


Alan
@AFK_10

@ChMadar @ICIJorg @wikileaks The difference between the 2 is clear, ICIJorg is funded by US Foundations & US Govt.

[8] Jurnalist araşdırması adını "palçıq, zibil eşənlər" (muckrakers) sözündən götürüb. Jurnalistlərdən narazılığını bildirmək üçün T.Ruzveltin işlətdiyi "palçıq eşənlər" sözünün taleyi uğurlu alınıb, yeni peşə sahibləri ortaya çıxıb. T.Ruzvelt bu sözu ingilis yazıçısı Con Benianın əsərinin mənfi surəti olan personajların adından götürüb. Bu personajlar “bir dəfə də olsun başları üzərindəki mavi səmaya baxmır, yalnız ayaqlarının altındakı palçığı eşməkdə” davam edirdilər. Araşdırmaçı jurnalistlər bu gün də həmin adla adlanır. (http://historyofjournalism.onmason.com/2009/12/02/teddy-roosevelt-the-man-who-coined-the-muckraker/; https://www.britannica.com/topic/muckraker). Bütün ölkələr üzrə araşdırmaçıları https://muckrack.com/ saytında tapmaq olar.

[9] Anya Schiffrin. Global Muckraking: 100 Years of Investigative Journalism from Around the World, 2014.

başlanılıb. Məqsəd yenə də ölkədaxili problemləri, lakin birlikdə araşdırmaq, tənqid hədəfi olan güclü dairələrin əks-tədbirlərindən birlikdə qorunmaq olub.

Lakin yeni geosiyasi və informasiya əsrinin çağırışları fonunda ABŞ siyasi rəhbərliyi proseslərin gedişatını dəyişdirməyə nail olub. İkiqütblü dünyanın çökməsi, qloballaşma prosesləri, İKT inqilabı və sosial şəbəkələrin ortaya çıxması, yaranan görünməmiş texnoloji imkanlar araşdırmaçılığı yeni geostrateji qüvvəyə çevirib. Xüsusilə müstəqil jurnalist Culian Assancın “Wikileaks” layihəsi ABŞ başda olmaqla Qərb dövlətlərinin yüksək dairələrinin siyasi korrupsiya, ABŞ-ın hərbi cinayətləri, diplomatik sirlər və casus qalmaqalları barədə tam məxfi hesab ediləcək məlumatların sızdırılması nəticəsində böyük nüfuz itkisinə məruz qalması yeni informasiya müharibəsi kanallarına ehtiyac yaradıb. İndiyə qədər başlıca geosiyasi təzyiq vasitəsi kimi “insan hüquqları” ritorikasının səmərəsinin azalması, ikili standartların aşkar təzahürü fonunda “antikorrupsiya hərəkatının” yaradılmasına, ABŞ-ın dünyada hərbi-siyasi və informasiya hegemonluğunun təmin edilməsinə qərar verilib.

Nəticədə araşdırmaçı jurnalistikanın yeni, qlobal miqyasda təşkilatlanması ABŞ-ın dünyada sərf etməyən “rejimlərin dəyişikliyi” texnologiyasının, yumşaq və sərt gücün sintezi olan hibrid müharibənin reallaşdırılma vasitəsinə çevrilməsi baş verib. Bu sahədə əsas aktorlar - bir tərəfdə Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ), ABŞ Dövlət Departamenti, USAID (ABŞ Beynəlxalq Əməkdaşlıq Agentliyi), NDI (Milli Demokratiya İnstitutu), NED (Demokratiya Fondu), Soros fondu, digər tərəfdə IT sahəsində nəhəng şirkətlər - “Silikon vadisi”nin meqa-donorları sayılan investisiya maqnatları, Omidyar Şəbəkəsi (Omidiar Network) və s. olmaqla işbirliyinin əsası qoyulur. “Qlobal araşdırmaçı jurnalist” adlanan mütəşəkkil şəbəkə dünya siyasi xəritəsini regionlar üzrə (Ərəb ölkələri, Latın Amerikası, Asiya ölkələri, Mərkəzi və Şərqi Avropa, MDB məkanı və s.) filiallar - dayaq nöqtələri ilə təsis edir. ABŞ-da daxili problemlərlə bağlı araşdırmalar tamamilə bir kənara qoyulub.

Beləliklə, yeni missiya - “Xüsusi Tapşırıqla Araşdırma” adlana biləcək transmilli şəbəkə yaradılıb. “İnsan hüquqları” əvəzinə, “antikorrupsiya” ritorikası altında informasiya müharibəsinə, “ofşor qalmaqalları” silsiləsinə, məlumatların sındırılması, sızdırılması ilə ölkələrdə xaos yaratmağa, iqtidarların devrilməsinə start verilib.

### ⇨ Amerikanı hədəfə alan “Pentaqon sənədləri”ndən xarici hədəfli ofşor sənədlərinə gələn yol

Yuxarıda sadalananlar sırasında yalnız 1-cisi - 1989-cu ildə yaradılmış “İctimai Dürüstlük Mərkəzi” istisna olmaqla, ABŞ-daxili gerçək araşdırmaçı missiyasına cavab verib. ABŞ-ın siyasi-hərbi, iqtisadi və s. elitasının səs-küylü seçki saxtakarlıqlarını, hərbi və korrupsiya cinayətlərini ifşa edən Çarlz Lyuis (Charles Lewis) öz fəaliyyətində jurnalistikanın yüksək standartlarının, obyektiv-faktoloji mənbələr əsasında araşdırmaların müəllifi olub. Vaşinqtondakı evində yaratdığı Mərkəz əsl dürüstlük nümunəsi kimi qanunsuzluqlarla barışmaz, gerçək və obyektiv araşdırmaçı jurnalist qismində böyük nüfuz qazanıb. Bir neçə misal: Ç.Lyuis 11 sentyabr hadisələrindən sonra C.Buş və onun komandasının İraqa hücumunu əsaslandırmaq üçün ən azı 935 yalan bəyanat verməsini faktla sübut edən “935 yalan: həqiqətin gələcəyi və Amerikanın mənəvi dürüstlüyünün çökməsi” (935 Lies: The Future of Truth and the Decline of America’s Moral Integrity) araşdırmasını çap edib. 2003-cü ildə İraqa hücum zamanı tarixdə ilk dəfə ABŞ hərbi












sənaye kompleksinin məxfi kontraktlarını, “Patriot II” qanununu müharibə gedişində ictimailəşdirib. C.Lyuisin digər araşdırmalarının sadəcə adına baxmaq kifayətdir: “Prezidentin satın alınması” (The Buying of the President 1996); “Konqresin satın alınması” (The Buying of the Congress 1998); “Qətl: müharibə biznesi” (“Killing: The Business of War”) və s.

Xüsusi vurğulanmalı məqam budur ki, məhz Ç.Lyuis 1997-ci ildə Mərkəzinin nəzdində “Araşdırmaçı Jurnalistlərin Beynəlxalq Konsorsiumu” (AJBK-ICIJ) layihəsini yaratmağa qərar verir. Onun məqsədi bütün dünyadan jurnalistlər və sosioloqların birlikdə ədalət, qanunsuzluq və müstəqil jurnalistika tendensiyalarını təşkil etmək olur.

Lakin media və texno-inqilab əsrinin gəlməsini xəbər verən C.Assanc və onun ilk qlobal “informasiya sızdırma” (WikiLeaks) əməliyyatının baş verməsi, ABŞ siyasətinin yeni nüfuz itkisi, əks tədbir kimi bu modeldən istifadə edərək, araşdırmaçılığı ölkə xaricinə çıxarmaq kimi strategiya vermiş oldu. Burada Çarlz Lyuisin obyektivlik örnəyi kimi ictimai rəydə qazandığı imici hər şeydən vacib idi. Beləliklə, ABŞ-ın siyasi və xüsusi xidmət orqanları, IT nəhənglərinin ortaq məsləhətləşmələri nəticəsində (təfərrüatları ilə məlum olan mənbələr mövcuddur) Ç.Lyuisin yüksək nüfuzundan sui-istifadə etmək qərara alındı. Yeni və başqa deyil, məhz Ç.Lyuisin 1997-ci ildə yaratdığı ICIJ-in nəzdində qlobal maliyyə kəşfiyyatı, informasiya sızdırma, texnoloji və məxfi fəaliyyətləri sintez edən qurum - OCCRP yaradıldı. Paralel olaraq, bu şəbəkənin onu ilk təşkilatlandıran Ç.Lyuisin barışmazlıq və obyektivlik nümunəsi sayılan jurnalizminin varisi olduğu görüntüsü formalaşdırılmağa çalışıldı.

Reallıqda isə Ç.Lyuis özünün ofşor sənədlərinə - mənbəyi göstərilməyən məlumat sızıntısına mənfi münasibətini açıqlayıb. Sitat: “ABŞ-da qeydiyyatdan keçmiş banklar, vergi qurumları "qeyri-qanuni" və ya bəlkə də birbaşa qanunsuz fəaliyyətlə məşğul olurlarsa, bu, ilk növbədə ABŞ hökumətini, Konqresini və vergi orqanlarını narahat etməlidir. Amma əksinə, hamı nədənsə başqa tərəfə baxır. Bu, qlobal problemdir”.

### ⇨ Araşdırmaçı jurnalist şəbəkəsinin xronikası

✓ 1989-cu ildə ölkədaxili araşdırma profilli “İctimai Dürüstlüyə Dəstək Mərkəzi” (Center for Public Integrity - CPI) yaradılıb. (Direktor: Çarlz Lyuis).

✓ 1997-ci ildə bu mərkəzin nəzdində Çarlz Lyuis tərəfindən ortaq fəaliyyət platforması kimi “Araşdırmaçı Jurnalistlərin Beynəlxalq Konsorsimu (International Consortium of Investigative Journalists - ICIJ) layihəsi yaradılıb. 2000-ci illərdən ABŞ rəhbərliyi təşkilatın profilini tamamilə dəyişib. (120

ölkədə 600 üzv; Direktor: Cerard Rayl (Gerard Ryle)).

✓ 2003-cü ildə bənzər ad və funksiyalı “Qlobal Araşdırmaçı Jurnalistlər Şəbəkəsi” (Global Investigative Journalism Network - GIJN) yaradılıb. (82 ölkədə 211 üzv; Direktor: Devid Kaplan)

✓ Eyni vaxtda, 2004-cü ildə bütün qlobal şəbəkənin maliyyələşdirilmə kanalı qismində "Jurnalistikanın İnkişafı Şəbəkəsi" (The Journalism Development Network Inc. - JDN), 2006-cı ildə onun tabe olduğu qlobal miqyaslı “Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Araşdırmaları Layihəsi” (Organized Crime and Corruption Reporting Project - OCCRP) yaradılıb. (80 ölkədə 160 jurnalist; 8 direktordan biri Xədicə İsmayılova; 7-si ABŞ-dandır)

✓ 2006-cı ilin oktyabrında Culian Assancın “WikiLeaks” layihəsi İslandiyada təsis edilib. ABŞ başda olmaqla Qərb dövlətlərinin siyasi korrupsiya, hərbi cinayətlər, diplomatik sirlər və casus qalmaqalları ilə bağlı məxfi faylları tirajanmağa başlayıb.

✓ Qərb dövlətləri nüfuz itkisini əvəzləmək, “WikiLeaks” qalmaqalını arxa plana keçirmək üçün Edvard Snouden işini dövriyyəyə buraxıb; informasiya müharibəsinin “sızdırma və tirajlama” mexanizmi kimi “ofşor qalmaqalları” yaratmağın mexanizmi sınaqdan çıxarılıb və işə salınıb.

✓ “WikiLeaks”ə əks-tədbir kimi ABŞ dövləti 2006-cı ildə OCCRP ilə eyni vaxtda Milli Demokratiya Fondu (National Endowment for Democracy) tərəfindən “Beynəlxalq Mediaya Yardım Mərkəzi” (The Center for International Media Assistance (CIMA) yaradıb. (Direktor: Marqarita Sallivan)

✓ 2015-ci ildən başlayaraq, “ofşor” və s. sızdırma əsaslı qalmaqallar davamlı geosiyasi təzyiq vasitəsinə çevrilib.

### ⇨ Araşdırmaçı jurnalist şəbəkəsinin xüsusiyyətləri

Qlobal şəbəkənin bir mərkəzdən idarə edilən və bütün planeti əhatə edən vahid araşdırmaçı “hörümçəyi” olduğuna dəlalət edən cəhətlər hamısının sponsor, himayədar və maliyyə mənbələrinin eyni olmasıdır. Yalnız adları müxtəlif, məqsədləri eynidir. Eyni “araşdırmaçılar” bütün təşkilatların idarə heyəti və üzvlüyündə təmsil olunur.

Daha geniş maraq doğuran məsələ isə guya çoxsaylı, müxtəlif adlı, bir neçə təşkilat görüntüsü yaradan şəbəkənin əslində bir təşkilat – OCCRP olmasıdır.

Mahiyyət bundan ibarətdir ki, ABŞ xüsusi xidmət orqanları ilə işbirliyində, qanunsuz yollarla əldə edilən məlumat - korrupsiya qalmaqalları növbə ilə gah bir təşkilata, gah da digərinə verilir və informasiya hücumu əməliyyatları başlayır. Bu, proseslərin arxasında duran gerçək qüvvə və məqsədlərlə bağlı ictimai rəyin aldadılmasına xidmət edir. Dolayısilə bu “manevrlər” şəbəkənin müxtəlif, obyektiv və çoxsaylı olması görüntüsünü yaratmaqla maliyyə donorlarından çoxlu vəsait qoparılması, məlumat mənbəyinin gizlədilməsi, onu sızdıran insayder-hakerlərin, ümumilikdə “ana” təşkilatların hüquqi təqibdən qorunması və digər məqsədləri güdür. Fəaliyyət mexanizmində diqqəti cəlb edən digər məqam: “araşdıran” haker, reportyor və s.-nin yalnız “öz dövlətləri əleyhinə çıxanlar” prinsipi ilə əməkdaşlığa cəlb edilməsi birmənalı olaraq sübut edir ki, bu fəaliyyətin müstəqil jurnalistikaya, ədalət prinsiplərinə heç bir dəxli yoxdur.

### ⇨ ABŞ-ın xarici ölkələrdə xüsusi sifarişlə işləyən jurnalist dəstələrinin - "araşdırmaçılar"ın qlobal şəbəkəsinin yaradılmasına necə başlanıldı?

Qeyd edildiyi kimi, 2000-ci illərin əvvəlindən, həmçinin 11 sentyabr hadisələrindən sonra araşdırmaçılığın vətəni olan Amerika yeni demokratiya ölkələri ilə bağlı xarici siyasət strategiyasında etdiyi dəyişikliklər sırasında informasiya amilini önə çəkdi. İnformasiya geosiyasətinin reallaşmasına xidmət edən tədbirlərə media azadlığı və jurnalistikanın yeni demokratiya ölkələrində inkişafına dair 350-yə yaxın sənəd qəbul edildi və araşdırmaçılıq "yeddi əsas amildən biri kimi" vurğulandı.

Yeni demokratiya ölkələrinin hədəf götürülməsi, onların qlobal güclərin təsiri altında saxlanılmasını təmin edən yeni siyasi texnologiyaların, İKT-nin ən müasir üsullarının, rəqəmsal-data jurnalistikanın tətbiqi burada ilk yerdə durur. Bu məqsədlə xarici siyasətdə məsul qurumlar hərəkətə keçir. İlk olaraq "ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondunun (NED) tərkibində 2004-cü ildə "Beynəlxalq Mediaya Dəstək Mərkəzi" (Center for International Media Assistance - CIMA) yaradılıb.[10] Mərkəzin yaranmasından 2013-cü ilə qədər ona Marqaret Sallivan (Marguerite Sullivan) rəhbərlik edib. Beləliklə, NED-in bir qolu kimi CIMA-ya dünyada araşdırmaçılığı yaymaq və maliyyələşdirmək, eyni zamanda onların inkişafını, maliyyə sərfinin hesabatlarını vermək həvalə olunur. Hər il dünyada media və internet azadlığına dair reytinqlər hazırlanır.

CIMA tərəfindən indiyə qədər 2 hesabat hazırlanıb. "Araşdırmaçı jurnalistika dünyada: dəstək strategiyaları" adlanan ilk hesabat 2007-ci ildə "Qlobal Araşdırmaçı Jurnalist Şəbəkəsi"nin (Global Investigative Journalism Network - GIJN) direktoru Devid Kaplan tərəfindən hazırlanıb.[11] 2-ci hesabat 2013-cü ildə "Yeni demokratiya ölkələrində Araşdırmaçı jurnalistika: modellər, çağırışlar, dərslər" adlı hesabat Dryu Sallivan (Drew Sallivan) tərəfindən hazırlanıb.[12] Hesabatlara araşdırmaçılığın qlobal durumu, eyni zamanda hansına nə qədər maliyyə ayrılması barədə məlumatlar daxil edilir. Məlum olur ki, 2007-ci ildə 26 ölkədə cəmi 39 araşdırmaçı mərkəz var idisə, sonrakı dövrdə araşdırmaçılıq "bumu" baş verib və 2013-cü ilin hesabatında dünyanın 47 ölkəsində 106 mərkəzin yaranması məmnunluqla qeyd edilir. Onların əksəriyyəti yeni demokratiya ölkələrində yaradılıb.

Yeni artım tendensiyasını ruhlandıran misallar qismində Filippin Araşdırma Mərkəzinin cəmi 8 aya 3 araşdırma ilə Prezident Estradanın devrilməsinə nail olması araşdırmaçıların işi üçün "qızıl standart" adlandırılır. 2003-cü ildə E.Şevardnadzenin "Rustavi-2" kanalının təşəbbüsü ilə devrilməsi böyük uğur kimi nümunə göstərilir.[13] Maraqlı məqam odur ki, Filippindəki mərkəzi NED-in Kolumbiya Universitetindəki Araşdırma Mərkəzinin direktoru Şeyla Koronel yaradıb. Onun rəhbərliyi altında Filippin mərkəzi bu "qızıl standarta" nail olub.

2007-ci ilin hesabatında qeyd edilir ki, Azərbaycanın da daxil olduğu Mərkəzi və Şərqi Avropada ilk dəfə araşdırmaçılıqla bağlı layihələr 2006-cı ildən başlanıb. MDB məkanında 2005-2006-cı illərdə Gürcüstanda təsis edilən "Qafqaz Araşdırmaçı Hesabatlar Mərkəzi"ndə 20 reportyora bu peşənin sirləri öyrədilir.

Azərbaycanda bu yeni istiqamətdə işlər Dövlət Departamenti tərəfindən ilk dəfə 2006-cı ildən "Exo" qəzeti və ANS TV ilə başlayan layihələrlə start götürüb.[14] Ayrılan maliyyə həm dövlət, həm də beynəlxalq donor təşkilatla-

[10] http://www.ned.org/cima/about-cima

[11] http://www.ned.org/cima/CIMA-Investigative_Journalism_Report.pdf Global Investigative Journalism: Strategies for SupportA Report to the Center for International Media Assistance 2007 year;

Twitter
Holland & Knight
Motley Legal
Kistefos
USB Memory Direct
Manhattan Portage
Venable
3Scan
AnchorFree
Mozilla

**Advocacy**

Atlas Network
Amnesty Norway
CANVAS
Civita
Electronic Frontier Foundation
U.N. Watch
Plan
North Korea Strategy Center
Norwegian Helsinki Committee
Students for Liberty

**Creatives**

Collins
Leo Burnett
No Starch
SXSW
Dear Leader
MESH
Ronik
Smock
WIRED
Liza Donnelly

**Media**

The Atlantic
Foreign Policy
The Wall Street Journal
BBC
VICE
CNN
Bloomberg
The Washington Post
The New York Times
National Review

**Academia**

Yonsei Center for Human Liberty
Wellesley Freedom Project
Democracy Lab
Universidad Francisco Marroquín
Tufts University
McGill University
Parsons School of Design
Columbia University
University of California, Berkeley
Cornell University

**Policymakers**

British Parliament
Norwegian Foreign Ministry
City of Oslo
Norwegian Parliament
Organization of American States
National Democratic Institute
International Republican Institute
European Endowment for Democracy
U.N. Special Rapporteurs
South Korea’s Ministry of Unification



# MESSAGE FROM THE CHAIRMAN

We should remember that 2016 was marked by celebrity deaths that received a lot of attention, and by the continued global decline of freedom and democracy that did not receive as much attention as it deserved. Especially in countries like Hungary, Russia, China, Venezuela, and Turkey.

In 2016, we lost ground to the overt advocates and the more nuanced apologists of authoritarianism and corruption, of dictatorship and terror, of chaos and brutality. We saw once again, in Syria, that men are capable of bulldozing fellow men, despite so many warnings from politicians and so many promises by democratic leaders to never to repeat our mistakes.

In 2015, I hoped my book "Winter Is Coming" would not need to be so relevant a year later, but the opposite has come true. Vladimir Putin and the enemies of the free world are still dire threats — and the steps I proposed to deter and push back against them are, unfortunately, more needed now than ever. Winter is here and it will be a long and harsh winter.

But I prefer to light a fire instead of cursing the cold!

In 2017, HRF will continue to take strength from the bright spots and I encourage you to do the same. Difficult times call for optimism and greater awareness that anything is possible. There is nothing to be gained by hanging our heads after setbacks. We must learn from them and adapt our strategies accordingly.

Authoritarianism lies at the root of so many of the world's crises — from terrorism to poverty to war — and the solution is to continue to find ways to promote individual freedom.

Technology is agnostic; it works as a power multiplier for anyone who uses it effectively. This is dangerous in the hands of black hat hackers and deadly when wielded by dictators. Used correctly, however, technology can assist us to amplify our efforts and obtain unprecedented speed. In order to maximize impact we must develop and sustain our resources. This will require leadership, and in the free world that comes from the people, not from our increasingly risk-averse and morally-vacant elected officials. If we continue to shine light into the darkness and come together in action, the course we are currently on can and will be changed. Eventually, the governments of democracies will follow the lead of its people.

You don't have to be an inspirational leader to use the powerful technology at everyone's fingertips to share knowledge. In a world overflowed with propaganda and fake news, it is up to each of us to bring a little more truth.

We at HRF look forward to keeping you updated on our progress in 2017 as we follow our mission of promoting freedom where it is most at risk.

Sincerely,

Garry Kasparov
Chairman
Human Rights Foundation

**Təkcə Kasparovun şəbəkəsinə daxil olan təşkilatların nümunəsində təsəvvür etmək mümkündür ki, Azərbaycan dövləti, onun müstəqil siyasət yürüdən siyasi lideri Prezident İlham Əliyevə qarşı səfərbər olan qlobal şəbəkənin miqyası və gücü olduqca böyükdür.**

Yeni fəaliyyət istiqamətinə digər nümunə Fondun saytında geniş təbliğ edilən yuxarıda qeyd edilən "leqal məhkəmə müharibələri"nə xüsusi önəm verilməsidir. Jurnalistlərin, siyasi məhbusların, ümumilikdə deyilsə, 5-ci kalonun havayı müdafiəsinin təşkili və məhkəmə xərclərinin ödənilməsi buraya aiddir.[60] Xüsusilə vurğulanmalı məqam ondan ibarətdir ki, bu məhkəmə işlərinin əksəriyyəti - "Laundramat" da daxil olmaqla H.Kasparovun "qatı və əbədi düşməni" Putini sanksiyalara çəkmək və çökdürmək məqsədilə aparılan məhkəmə prosesləri nəticəsində "üzə çıxır", Azərbaycanın adı oldu-olmadı hallandırılır.

13 noyabr 2021-ci ildə mediada "Ziya Məmmədova 100 milyon dollar "otkat" işi üzrə Stokholmda məhkəmə başladı" başlıqlı xəbərlər tirajlandı.[61] Diqqət edək: məhkəmə harada başladı? "İsveçin paytaxtı Stokholmda Kanadanın "Bombardier" şirkətinin törəmə şirkətinin ("Bombardier Sweden") keçmiş vitse-prezidenti Tomas Bimer üzərində məhkəmə başlayır." Həmçinin, Londonda Azərbaycanla bağlı məhkəmə gedir. Bu məhkəmələr, şübhəsiz, Kasparovun Azərbaycanın imicini zəiflətmək üçün adı havayı - "pro bono", reallıqda isə milyonlarla ödəməklə həyata keçirdiyi, bəzən 5-6 il davam etsə belə, ardıcıl tirajlanaraq sona çatdırdığı, ölkəmizin adının hallandırıldığı hadisələrdir. Hətta rüşvət verən "Bombardier Sweden" şirkəti Stokholm üçün son illərin ən böyük iqtisadi layihəsi olsa belə, yenə də hədəf Azərbaycanın korrupsiya imicinin formalaşdırılmasıdır.

[60] Pro Bono Litigation on Behalf of Political Prisoners. // https://hrf.org/impact-litigation

[61] https://virtualaz.org/uzbeuz/195553

### ➯ Kasparovun 5-ci kalonu maliyyələşdirmək üçün virtual-rəqəmsal valyutanın tətbiqi  sahəsində qlobal təşəbbüsləri

Vətən müharibəsində məğlub olan Ermənistan Prezidenti Armen Sarkisyan PBK agentliyinə müsahibəsində bildirdi ki, “növbəti müharibədə Ermənistan süni intellektlə qalib gələcək”.

Bu baxımdan Kasparovun süni intellekt, virtual-rəqəmsal valyuta və s. texnoloji inqilabın ön cəbhəsində fəallığı diqqət çəkir. Kasparov  virtual valyutanın - bitkoinin ən yaxın dəstəkçisi kimi tanınır. Dünyada süni intellektlə (Deep Blue kompüteri ilə) ilk şahmat matçı keçirən şəxs olmasından sui-istifadə edən  Kasparov bu sahədə olduqca fəaldır. O, qlobal forumlarda iştirak edir, yeni kitablar yazır.[62] Təbii olaraq, bu fəaliyyətində də insan haqları ritorikasından istifadə edir.




Hazırda virtual valyuta  milli valyutalara böyük rəqabət elan edib. Bu sahədə dərin bilgiləri olan Kasparov mənfəət əldə etməklə yanaşı, öz fondunun nəzdində “Bitkoin İnkişaf Fondu”nu yaradıb. Fond təkcə yeni bir vasitə olmayıb, həm də ölkəmiz daxil olmaqla iqtisadi və siyasi təhlükəsizliyə böyük təhdid yaradan istiqamət hesab edilə bilər.[63]

Fondun məqsədi nə olsa yaxşıdır?  Sitat: “İHF-HRF şəbəkəsindəki fəallara bitkoindən necə istifadə etməyi öyrətməklə, avtoritar rejimlər altında olan jurnalistlərə və dissidentlərə,   dünyanın istənilən yerindən maliyyə almaq üçün öz internet saytında bitkoin ödəniş prosessorunu necə qurmaqla

[62] https://www.youtube.com /watch?v=3EQA679DFRg

[63] https://hrf.org/devfund

bağlı fərdi yardım göstərməkdir. Maliyyəni konfiqurasiya etməkdir *(dollara çevirmək və s.-dir - **red**.)*. Proqram xərclərini ödəmək üçün lazım olduqda bitkoini etibarlı məbləğə satmaqdır".

Son bir ildə Fond bu sahəyə bitkoinlə 1milyon dollar ayırıb (1 bitkoin - 250-300 dollar arasıdır). Kasparov tərəfindən həmçinin "Bitcoin Developers Academy" yaradılıb, bütün ölkələrdə təlimlər keçirilir, filialları şəbəkələşdirilir. Məqsəd, təbii ki, aydındır: 5-ci kalonu maneəsiz maliyyə ilə təmin etmək, onlara axının izlənməsinin qarşısını almaq, uzaq perspektivdə milli valyutalara birbaşa təhlükə yaratmaq.

Qarşıya böyük məqsədlərin qoyulmasını Fondun bitkoin istiqamətində işlərinin anarxist hakerlər tərəfindən Bitcoin Miners (virtual valyuta emalçıları) şəbəkəsi ilə birgə aparması da göstərir.

Kasparov bu işə dünyanın ən öndə gedən mütəxəssislərini, bitkoin yaradıcısını, kriptovalyuta proqram təminatçılarını cəlb edə bilib. Təkcə onu qeyd etmək kifayətdir ki, bitkoinin əfsanəvi yaradıcısı, dünyanın Top-20 zəngin siyahısına düşmüş yapon, hazırda Kaliforniyada yaşayan Satoşi Nakamoto Kasparovla əməkdaşlıq edən sahə nəhənglərinin yalnız biridir.[64] Son 2 onillikdə CIA-ya dəvət edildikdən sonra məxfi həyat sürən Nakamoto məlumdur ki, baxışlarına görə anarxistdir. Onun məsləkdaşları - üç developer qardaşının dediyinə görə "Nakamoto siyasi səbəblərə görə bitkoində iştirak edir. O, bu gün yaşadığımız sistemi, sadəcə əllərində seyf açarları olduğu üçün varlanan bankları və bankirləri sevmir".[65]







[64] Beş vacib kriptovalyutadan (Bitkoin, Ethereum, Ripple, Dash və Litecoin) 1-cisinin - bitkoinin yaradıcısı (hüquqi təqibdən qaçmaq üçün) indiyədək sirr pərdəsi ilə örtülüb, 1 nəfər, yoxsa komanda tərəfindən hazırlanması ilə bağlı məhkəmə işi indi də - 2021-ci ilin noyabrda da davam edir. S.Nakamoto-nun, nəhayət, deşifrə edilməsi gözlənilir: https://www.wsj. com/ articles/ bitcoin-creator-satoshi-nakamoto-could-be-unmasked-at-florida-trial-11636808401. Virtual valyuta, blokçeyn tərəfdarları nəzarətsiz, vergisiz, banklarsız dünya tərəfdarı əsasən ifrat solçu, qlobal anarxist-pirat hərəkat dəstəkçiləridir.

[65] https://www.vedomosti.ru/business/articles/2014/03/06/legendarnogo-sozdatelya-bitcoin-nashli-v-kalifornii




Kasparov dekabrın 9-da son dövrdə ortaya çıxan yeni fenomen - "NFT" (Non-Fungible Tokens) sahəsində özünü sınayacaq. Yeni dövriyyəyə gələn “NFT”, yəni “Non-Fungible Tokens” (mübadilə edilməyən, əvəzi ödənilməyən token) anlayışının Azərbaycan dilində izahı yoxdur. Türk dilinə "Gayrı-Misli Jetonlar", yəni “misli ödənilməyən tokenlər”, “misilsiz virtual əməliyyatı (hərracı)” kimi tərcümə edilir. Bir qədər kobud analogiya ilə məlum hərracın virtual forması adlandırıla biləcək NFT - alınması üçün dünyada cəmi 1 ədəd olan, nadir məhsul olmalıdır. (Biz bunu hələ ki, virtual antikvar hərracı adlandıra bilərik.) Məsələn, Tvitterin yaradıcısı Cek Dorsinin 1 tviti 2 milyon dollara satılıb. Dekabrın 9-da Kasparov özünün “düşüncə irsini”, həyatını, indiyə qədər danışmadığı unikal yaradıcılığı və şəxsi xəzinə hesab etdiyi təcrübəsindən lazım bildiyi məqamları NFT-də hərraca çıxaracaq. Bu haqda aidiyyəti saytda elan və çarx yerləşdirilib.[66] Reklamda Kasparov “Oyun qaydalarını dəyişən oyunçunu qarşılayın” kimi təbliğ edilir.




[66] https://1kind.com/

Əldə edilən maliyyənin üzdə insan haqlarına sərf ediləcəyini bəyan etsə də, gerçəklikdə məqsədin rəhbəri olduğu Fondun təbliği, daha geniş əhatəyə çıxması kimi başa düşülməlidir.

Kasparov Fondun bitkoinə nə üçün böyük diqqət ayırmasını izah edərkən, "WikiLeaks"in təcrübəsinin acı dərslərini misal gətirir: "WikiLeaks"in məğlub olmasının əsas səbəbi onun Visa və s. kimi ödəniş prosessorlarının bloklanması oldu. Bu virtual valyutanın - bitkoinin nə üçün vacib olduğuna ən yaxşı bir nümunədir. Çünki sənin pul ala və ya göndərə biləcəyinə kimsə qərar verə bilməz. İnsan hüquqlarının müdafiəsində bu, getdikcə daha vacib olacaq".[67]







Beləliklə, aşkar bəyan edildiyi kimi, Kasparovun məqsədi bütün dünyada 5-ci kalonu virtual valyuta ilə təmin edən proqramları tətbiq etməklə, bu sahədə maliyyə nəzarətinə zərbə vurmaqla milli valyutaları dəyərsizləşdirməkdir.

Belə vəziyyətdə, məsələn, Azərbaycanda QHT-lərin maliyyələşdirilməsi qanunları, qrantlara qadağa qoyulması və s. mənasız bir məsələyə çevrilir. Maneəsiz maliyyə alan fərd və ya kollektivlərin sayı-hesabı nəzarətdən çıxa bilər. Artıq Mehman Hüseynovun, Avropada "söyüş müxalifətinin" canlanması, fəallaşması - bütün bunlar yeni kriptomaliyyə axınının başlanmasına işarə edir. Fondun saytında bitkoini milli pula çevirməyi təmin edən proqramın izahlı videosu yerləşdirilib. Hələ 6-7 il əvvəl Meydan TV -də olarkən Emin Milli ilk dəfə kriptovalyuta ilə maliyyə aldıqlarını elan etmişdi. Şübhə yoxdur ki, bu, onlara Media Azadlığı mükafatını verən Kasparovun Fondunun kriptodəstəyi olub.

Ölkədə etiraz aksiyaları keçirməyə çalışan mühacir blogerlərdən Tural Sadıqlı,[68] Altay Göyüşov və M.Mirzəlinin "Azərbaycanda artıq öz şəbəkəmizi qurmuşuq" deməsi artıq ölkə daxilində konkret maliyyələşən qruplardan xəbər verir. İstər Mehman Hüseynov, istər mühacir blogerlər, istərsə də "Baku Research Institute" təhlil mərkəzinin (Altay Göyüşov)[69] və s. fəaliyyətini hazır araşdırmalarla təmin edən qurum OCCRP və Kasparovun şəbəkəsidir.

Ölkəmizə qarşı böhtan xarakterli araşdırmalarla bağlı hazır saytların (London Azərbaycandır) verilməsi, korrupsiya ilə mübarizə adı altında müxtəlif şəxslərin sərvəti ilə bağlı mürəkkəb dizayna malik multimedia materiallarının,

[67] How Bitcoin Can Help In The Fight For Human Rights // https://www.forbes.com/sites/laurashin/2019/06/25/how-bitcoin-can-help-in-the-fight-for-human-rights/?sh=8bb710a5bdc9

[68] https://londonazerbaycandir.com/?fbclid=IwAR3ymbWuDFsNqS8opo3jkzbajLF-DEmwUSyawv1dc Fb5xDW4D_Z2Sie r AgM

[69] https://bakuresearchinstitute.org/en/kleptocracy-map-2/

infoqrafikaların, veb-dizayn həllərin Azərbaycandakı 5-ci kalon və xaricdəki vətən xainlərinin təmin edilməsi ilə bağlı bu şəbəkələr öhdəlik götürüb.

Azərbaycanda bitkoin və s. kriptovalyuta ilə bağlı nəinki maariflənmənin olmaması, hətta qanunvericiliyin belə hələlik formalaşma mərhələsində olması yaxın gələcəkdə aşkar təhdidlərin ola biləcəyini deməyə əsas verir. Bu günlərdə AR Daxili İşlər Nazirliyi böyük saxta virtual maliyyə piramidasını ifşa edib və şəbəkəni həbs edib.[70] Bu və digər hadisələr cəmiyyətimizdə hələlik ilk dəfə baş verir. Keçən əsrin 90-cı illərində Rusiyada "MMM", Azərbaycanda "Vahidbank" və s. real maliyyə fırıldaqlarını (ponzilər) XXI əsrdə artıq virtual maliyyə fırıldaqları əvəz edir. Yüzlərlə insan iflas vəziyyətinə düşür.

### ⇨ Kasparovun dünya yəhudi diasporu ilə sıx əlaqələr qurması, İsraildə "düşüb qalması" və Azərbaycan üçün nəticələri

İsrail-Azərbaycan münasibətləri Vətən müharibəsində sınaqdan çıxdı. Həmçinin, ABŞ yəhudi diasporunun ölkəmizə loyal münasibəti məlumdur.

Dünya ermənilər hazırda bu istiqamətdə münasibətləri korlamaq üçün Kasparov fiqurunu tam gücü ilə işə salıb. Atasının yəhudi olması faktorunu sui-istifadə edən Kasparov "əfsanəvi qrossmeyster", süni intellektlə şahmat oynayan ilk şəxs kimi özünü az qala yəhudi kimi təqdim edir ki, bu da erməni xislətini maskalamaq üçündür.

Halbuki 7 yaşında itirdiyi atasının soyadını dəyişərək anasının soyadını götürməsi məlumdur. Guya bu SSRİ dövründə siyasi-dini gərginliklə bağlı olub.[71]

Şübhə yoxdur ki, bu səylərin arxasında süni intellekt, kiber kəşfiyyat,total izləmə (surveliance) və s. sahədə ən son texnologiyaların ünvanı, ABŞ-a ciddi rəqib olması səbəbindən "Pegasus" kimi araşdırmaçı sızdırmalarda hədəf seçilən, dünyada ən qabaqcıl ölkələrdən hesab edilən İsraildən hərtərəfli bəhrələnmək durur. Kasparovun İsrailin aparıcı start-upu olan "İmprovate" şirkətinin Qlobal İnnovasiyalar sahəsində Yerusəlim Forumunun Məsləhət Şurasına üzv olması yaxşı niyyətlərə xidmət etmir. Şübhə yoxdur ki, onun əsas məqsədlərindən biri Azərbaycan-İsrail əməkdaşlığına əngəllər yaratmaq, ermənilərlə yəhudilərin aralarını düzəltmək, ən qabaqcıl süni intellekt və hərbi texnologiyaların Ermənistana gətirilməsinə lobbiçilik etmək, Azərbaycana qarşı cəbhəni daha da genişləndirməkdir.

2021-ci ilin iyul ayında tirajlanan "Pegasus sənədləri", burada Azərbaycan adının qabardılması məlumdur. Ölkəmizin adının yeri gəldi-gəlmədi xüsusilə vurğulanması məqsədyönlü təşkil edilmiş növbəti kampaniya oldu. Bir neçə gün əvvəl, 2021-ci il noyabrın 25-də "Pegasus qalmaqalı"ndan sonra İsrailin Müdafiə Nazirliyinin "NSO Group" şirkəti kiber kəşfiyyat/ izləmə texnologiyaları satılacaq ölkələrin sayını 102-dən 37-ə endirdi. Yeni siyahıda Azərbaycanın adı yoxdur. Burada ermənilərin, özünü "yəhudidən artıq yəhudi elan edən" Kasparovun xidmətləri də ola bilər.[72]

Göründüyü kimi, "araşdırmaçıların" "Pegasus" sızdırması ilə ABŞ həm kibertexnologiyaların satışı sahəsində öz rəqibini küncə sıxışdırdı, həm də Konqres iki ölkə arasında münasibətlərdə ilk dəfə "NSO Group" şirkətini qara siyahıya saldı. Hazırda "Apple" şirkəti Ayfon (Iphone) istifadəçilərini izlədiyi üçün şirkəti məhkəməyə verib və s. Halbuki, E.Snouden işində açıqlanan əsas fakt ABŞ xüsusi xidmət oqanlarının gündə ölkə daxilində və xaricdə yüz milyonlarla vətəndaşın zənglərini izləməsi olmuşdu.

O, noyabrın 29-da keçirilən "Dünya liderləri və İsrail innovasiyaları" (November 29 | 2021.World Leaders And Israelı Innovatıon Meet In One Mega-Event In Jerusalem) tədbirində əsas spikerlərdən biri idi.[73]

[70] Bakıda görünməmiş maliyyə piramidası sxemi: minlərlə azərbaycanlı qurban oldu. // https://haqqin.az/news/226575 ).

[71] "…his original last name was Weinstein. He later changed it to his mother's maiden name, Kasparov, to avoid political and religious tensions that were common in the USSR at that time."// https://www.ichess.net/blog/garry-kasparov-chess-legend/

[72] Exclusive:Israel defense ministry slashes cyber export list, drops Saudi Arabia, UAE //https://www.calcalistech.com/ctech /articles/0,7340,L-3923361,00.html

[73] https://improvate.net/






THE TIMES OF ISRAEL

## Chess legend Garry Kasparov warns humans a greater threat than AI

The Kremlin critic, who famously played against a supercomputer, says he's more worried by what 'dictatorial, totalitarian countries and the terrorists' may do with the technology

By YASSINE KHIRI
5 November 2021, 1:27 pm |

Garry Kasparov poses for a photograph during an interview at the Web Summit in Lisbon, Portugal, on November 3, 2021. (Carlos Costa/AFP)












THE JERUSALEM POST

## Garry Kasparov to receive ADL award at antisemitism summit

As an internationally renowned chess celebrity and human rights activist, Mr. Kasparov has stood forcefully against authoritarianism

By JERUSALEM POST STAFF **Published:** NOVEMBER 9, 2020 21:00

72nd Cannes Film Festival - Photocall for the manga "Blitz" - Cannes, France, May 18, 2019. Former world chess champion Garry Kasparov poses.

Kasparov antisemitizm və nifrət cinayətləri ilə mübarizə yönündə Nyu-Yorkda yaradılan “Antidiffamasiya Liqası”nın yəhudi təşkilatına üzv olub və Liqanın antisemitizmlə mübarizədə “Beynəlxalq Lider” mükafatını alıb.

Artıq Kasparovun ikitərəfli münasibətlərə "tövsiyələri"nin nəticələri görünür. Belə ki, bu günlərdə Nikol Paşinyanın oğlu Aşot Paşinyanın İsrail şirkətində işə düzəlməsi xəbəri yaıldı. İsrailin informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən “Webiz” adlı şirkəti hazırda İrəvanda öz filialını - “Webiz academy” yaradıb. Şirkət Aşot Paşinyan da daxil olmaqla bir neçə yerli meneceri işə götürüb. Erməni filialını İsraildən olan komanda idarə edəcək. A.Paşinyan şirkətdə istedadlarla bağlı məsələlərə rəhbərlik edəcək.

### ➩ Qlobal “Kasparov Fondları” ölkəmizi hədəfə alan dünya erməniliyinə xidmət edir

Özünü texnoloji inqilabın ön cəbhəsində çalışan, strateq-qrossmeyster, intellektual, akademik tədqiqat sahəsinin düşüncə adamı kimi də təqdim edən Kasparov, əslində, Rusiya, Azərbaycan və Türkiyəyə patoloji nifrətini açıq şəkildə bəyan edən radikal siyasətçidir. O, 2015-ci ildə “Qış gəlir: Vladimir Putin və azad dünyanın düşmənləri niyə dayandırılmalıdır?” (Winter Is Coming: Why Vladimir Putin and the Enemies of the Free World Must Be Stopped) kitabını yazıb.

Şəxsi internet saytında intellektual fəaliyyəti ilə bağlı qeyd edir: Oksford Universitetində "İnsan-maşın münasibətləri" və "Bəşəriyyətin Gələcəyi İnstitutu"-nun (Future of Humanity Institute) tədqiqatları üzrə mütəxəssisdir. O, "Məsul Robototexnika Fondu”nun (Foundation for Responsible Robotics) icraçı məsləhətçilər şurasının üzvü, Kibertəhlükəsizlik və rəqəmsal gələcək üzrə Avast Proqramının təhlükəsizlik səfiridir (Security Ambassador for Avast Software).

Biznes strategiya və qərar qəbulu ilə bağlı “Həyat şahmatı necə təqlid edir” (How Life Imitates Chess) kitabı 20-dən çox dilə tərcümə edilib. Onun şahmat kitab seriyasından "Mənim böyük sələflərim", "Müasir şahmat”, "Dərin düşüncə: maşın intellektinin bitdiyi və insan yaradıcılığının başladığı yer" (Deep Thinking: Where Machine Intelligence Ends and Human Creativity Begins) kitabları işıq üzü görüb.


KASPAROV CHESS FOUNDATION EUROPE
Founded by World Chess Champion Garry Kasparov and Jan Callewaert, driving force behind the European Union's endorsement for the “Chess in Education” program, the mission of the Foundation is to bring the educational benefits of chess to children and youngsters throughout Europe. The Foundation promotes chess as a cognitive learning tool in curricular classes and after-school programs for elementary, middle and high schools. KCFE provides schools with an unique web-based software enabling teachers to teach chess in the classroom and empower pupils to further learn and practice at home.

Visit the Website

KASPAROV CHESS FOUNDATION
Founded by World Chess Champion Garry Kasparov, our mission is to bring the many educational benefits of chess to children throughout the United States by providing a complete chess curriculum and enrichment programs. The Foundation promotes the study of chess as a cognitive learning tool in curricular classes and after-school programs for elementary, middle and high schools, both in the public and private school sectors.

Visit the Website

KASPAROV CHESS FOUNDATION AFRICA
The Kasparov Chess Foundation Africa was officially launched in March 2012 as a public benefit organisation focusing on the promotion of chess as a tool for education and social development in both South Africa and the broader African continent. KCF-A has established its head office in Johannesburg, South Africa and operates under the patronage and chairmanship of the 13th World Chess Champion, GM Garry Kasparov. Visit the Website

KASPAROV CHESS FOUNDATION ASIA & PACIFIC
Kasparov Chess Foundation Asia-Pacific Pte Ltd (KCFAP) was incorporated in Singapore and launched by Garry Kasparov on November 16th, 2013 at the Singapore Chess Federation Awards Night. The objective of KCFAP is to catalyse and promote the adoption of chess in education in the Asia-Pacific region Visit the Website

KASPAROV CHESS FOUNDATION IBERO AMERICA
Kasparov Chess Foundation Ibero-America, launched in April, 2014 seeks to promote chess in schools through out Central and South Americas. The foundation is currently developing the program called 'Teaching Chess Step by Step' and is present in several Ibero-American countries.

[74] https://www.kasparov.com/foundation/

[75] https://www.chessameer. com/garry-kasparov-net-worth/

O, Avropa, ABŞ, Asiya, Latin Amerikası, eləcə də Brüssel, Yohannesburq, Sinqapur və Mexikoda “Kasparov Şahmat Fonda”larını yaradıb.[74] 3-cü həyat yoldaşı Darya Trasova “Kasparov International Management Inc.”-ni idarə edir. Sərvəti 6,5 milyondur.[75] 3 həyat yoldaşından 4 uşağı var. ABŞ və Xorvatiya vətəndaşıdır.

**Kasparovun Rusiya nifrəti.** Kasparovun Putinə qarşı düşmənçiliyi radikal deyil, patoloji adlandırıla bilər. Təsəvvür etmək çətin deyil ki, onun əlində ixtiyar olsa Rusiya və Putinin taleyi necə ola bilər. O, Putin haqqında deyir: “Putin dünyada ən təhlükəli insandır, çünki özünü bütün qanunlardan üstün sayır. Putinin gücü Qərbin zəifliyindədir”.[76]

Halbuki Kasparov digər dissidentlərdən, həmkarı Navalnıdan heç də çox təzyiq görməyib.

2004-cü ildə qarşıdakı (2008) prezident seçkilərində Putinə müxalif kimi Kasparov “Azad seçim” (Free Choice 2008 Committee) və “Başqa Rusiya” (The Other Russia) təşkilatlarını təsis edib. Sonra Navalnı, Jirinovski, Nemtsov, Politkovskaya, Xakamada və başqaları ilə “Birləşmiş Vətəndaş Cəbhəsi” müxalifət hərəkatını yaradıb. Krım məsələsində Navalnı ilə fikir ayrılığı və Cəbhə rəhbəri seçimlərində Navalnıya uduzduğu üçün hərəkatdan ayrılıb. 2013-cü ildə “Narazılar marşı"nda həbs edilib, sonradan Rusiyanı birdəfəlik tərk edib.[77] 2014-cü ildən Kasparovun saytı Roskomnadzor tərəfindən qapadılıb. Bu qısa məlumatı verməkdə məqsədimiz odur ki, Putin və Rusiya dünya ermənilərinin özünə münasibətini birmənalı olaraq bildiyi halda, bəzən ölkəmizlə bağlı sonadək səmimi olmayaraq, Qarabağ erməni icmasının müdafiəsinə qalxır. Qeyd edilən məqamın ikitərəfli görüşlərdə vurğulanması qarşılıqlı münasibətlərdə aydınlığa xidmət edə bilər.

Bütövlükdə, Kasparovun doğulub böyüdüyü Azərbaycana nankorluğu fonunda illərlə yaşadığı Rusiyaya münasibəti təəccüblü deyil. Sirr deyil ki, onun dünya çempionu yarışlarına buraxılmasında, böyük şahmat yarışlarına irəli çəkilərək tanıdılmasına maneələr yaradılanda, onların həll edilməsində Ümummilli lider Heydər Əliyevin xüsusi rolu olub.[78] Bir zamanlar ingilis müəllif tərəfindən hazırlanan kitabda Bakını öz doğma şəhəri adlandıran Kasparov bu gün doğulduğu yerlə bağlı belə deyir: “Mən həmişə amerikalı auditoriyama deyirəm: SSRİ-nin lap cənubunda, Gürcüstanın düz yanında doğulub böyümüşəm. Ziyalı yəhudi ailəsində anadan olmuşam... Anatoli Karpovla 6 ay davam edən oyunumu (10 sentyabr 1984 - 8 fevral 1985) sonda onu məğlub etməyim deyə “KGB” dayandırıb. O vaxtdan müxalifətdəyəm”.[79]




[76] https://cyprus-daily.news/garri-kasparov-sila-putina-v-slabosti-zapada/

[77] https://www.youtube.com/watch?v=oZ0Az8KTIHw

[78] “Heydar Aliyev, Azerbaijan's President, on several occasions back in the 1980s, used his position in the Soviet Politburo, to assist Garry in getting a fair chance to play international competitions when Muscovites tried to block his participation.”//https://www.azer.com/aiweb/categories/magazine/33_folder/33_articles/33_kasparov.html

[79] https://www.persuasion.community/p/kasparov?r=6yn7y&utm_campaign=post&utm_medium=web&utm_source=twitter

### ⇨ UNESCO və Azərbaycan. "Sərhədsiz Reportyorlar"ın sponsoru olan təşkilat son illər nə üçün Azərbaycana qarşı dönük çıxıb?

BMT-nin elm, təhsil və mədəniyyət sahəsində ən böyük təşkilatı ilə ölkəmiz arasında münasibətlərin ən yüksək səviyyədə olduğu vaxtlar uzaqda deyil. K.Matsuranın rəhbərliyi dövründə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qurumun "xoşməramlı səfiri" seçilməsi, İ.Bokovanın dövründə münasibətlərin daha da inkişafı, mədəni irsimizlə bağlı tarixi qərarların qəbul edilməsi və s. məlumdur. Bolqar əsilli İrina Bokovanın nəinki təkrar baş direktor seçilmə, hətta BMT-nin Baş katibi seçilmə imkanları çox böyük olub, müzakirələrin mövzusu idi.

Amma və lakin... Azərbaycanla yüksək münasibətlər quran UNESCO baş direktorunun təkrar seçilməsi dünya ermənilíyinə qətiyyən sərf edə bilməzdi və... düyməyə basıldı. Burada da qlobal "araşdırmaçı, hüquq müdafiə, demokratiya" və s. şəbəkələr hərəkətə keçdi. Üzvlük haqqının ödənilməsində çətinliyi, qurumun anti-İsrailçi mövqeyini bəhanə gətirərək, gerçəklikdə Fələstinin UNESCO-ya üzv qəbul edilməsinə etiraz kimi 2017-ci ildə Tramp dövründə ABŞ, hənçinin İsrail və Kanada üzlvükdən çıxaraq, daimi müşahidəçi statusuna keçdilər.

Qlobal şəbəkəni maliyyələşdirən Dövlət Departamenti UNESCO-dan çıxmağın daha bir əsas səbəbi kimi, sitat: "son vaxtlar bu təşkilatın fəaliyyəti ilə bağlı "Transparency International"ın açıqladığı qalmaqalları ("Panama sənədləri") göstərdi. İrina Bokova dəfələrlə Azərbaycan hakimiyyəti tərəfindən korrupsiya layihələrinə, müəyyən şəxsiyyətlərə və layihələrə fədakar himayədarlıq etməkdə ittiham edildi.[80]

(**HAŞİYƏ: həmin vaxt "Transparency International" təşkilatının rəhbərliyində kim idi: Əlbəttə, xüsusi hüquq müşaviri (Special Legal Counsel of Secretariat) Aleksandr Papaxristou!!! )**

Araşdırmaçı şəbəkənin, Xədicə İsmayıl başda olmaqla gecə-gündüz çeynədiyi bu mövzuda dərc olunan məqalələr qlobal media gündəmindən düşmədi. X.İsmayılın həbsində birbaşa xoşməramlı səfirin adı hallandırıldı. UNESCO-ya, BMT-yə fasiləsiz böhtan məktub-müraciətləri və s., nəhayət, "qlobal ulaşma" öz bəhrəsini verdi. İ.Bokovanın təkrar seçilmə və BMT-nin baş katibi postuna keçmək perspektivlərinə son qoyuldu.

Yeni baş direktor postuna BMT-nin tarixində ilk dəfə idi ki, bir ərəb - qətərli Həmid Əbdüləziz Kavari namizəd göstərilmişdi. Lakin seçkinin ən son mərhələsində Odri Azulay 58 səsin 30-nu qazanaraq cəmi 2 səs fərqlə seçildi.

Bu xəbərə ən çox sevinən Azulayın atası - Mərakeş kralı VI Məhəmmədin müşaviri Andre Azulay oldu. O bildrdi ki, "Onun bacarığı YUNESKO sədrliyinə layiqdir. Seçkini qazanması təsadüfi deyil".[81]


André Azoulay: Audrey Azoulay 'Deservedly' Won UNESCO Chief Vote

Staff Writer Oct. 16, 2017 9:00 a.m.

[80] Образование, наука и культура как разменная монета политики. США против ЮНЕСКО// https://www.bfm.ru/news/367334

[81] https://www.moroccoworldnews.com/2017/10/231187/andre-azoulay-audrey-azoulay-unesco

Odrinin atasının kimliyi  ilə maraqlananda qızının qələbəsinin həqiqətən də təsadüfi olmadığı üzə çıxır. Məlum olur ki, **Andre Azulay qlobal jurnalist konsorsiumunun rəhbərliyində təmsilçiliklə yanaşı, 20-yə yaxın digər qlobal vəzifələrdə  çalışan Aleksandr Papaxristounu əvəzləyib.**

Harada? Əlbəttə, dünyanın ən nüfuzlu və bir əsrdən çox yaşı olan qlobal erməni xeyriyyəçilik təşkilatı - Yeni Şərq Fondunda (Near East Foundation). Andre Azulay burada Prezidentlər Şurasının rəhbəridir.[82]




Ata Azulay yəhudi əsillidir. Fəaliyyətinə qısa nəzər salanda məlum olur ki, o, gənc yaşda olan Mərakeş kralı Məhəmmədin əvəzinə ölkəni faktiki idarə edən, islahatları reallaşdıran şəxsdir. Atanın oturub-durduğu əhatə isə təkcə dünya erməniləri deyil,  Rotşildlər ailəsi, Bilderberq klubunun üzvləri və s.-dir.

Ağıla gələn ilk sual yəhudi əsilli Andre Azulayın Mərakeşi idarə etməkdən vaxt ayırıb, nə üçün  erməni xeyriyyə təşkilatının rəhbərliyində yer almasıdır? Cavab: Andrenin həyat yoldaşı Katya Brami ermənidir. İlk olaraq ağlımızda Saxarov-Yelena Bonner paralelləri gəlir və buna mühüm əsas da var. Katya Brami ərinin tək Mərakeşi yox, Avropa və dünya erməni şəbəkəsinə dəstəyini təmin edir.

[82] https://www.neareast.org/who-we-are/board-of-directors/






## ● Ata Azulayın qlobal "Ələddin" layihəsi (Project Aladdin)

A.Azulayın təşəbüsü ilə 2007-ci ildə "Ələddin layihəsi" təşkilatı yaradılıb və onun rəhbərliyinə təkcə dünyanı idarə edən hərbi-siyasi-iqtisadi elitanın deyil, həm də qlobal yəhudi diasporunun açar ismi olan Baron Rotşild gətirilib.

Bu təşkilat Fransa, Amerika, Ərəb ölkələri, İsrail və s. dövlətlərin hazırkı və sabiq siyasi liderlərini, nazirləri, diplomatları, alimləri, jurnalistləri bir araya gətirməklə mədəniyyətlərarası dialoqun, xüsusilə də yəhudi və müsəlmanlar arasında dialoq və birgəyaşayışın təbliği məqsədi ilə yaradılıb.[83]

A.Azulay təşkilatın təsisçilərindən biri və vitse-prezidenti kimi dünyanı idarə etdiyi deyilən Rotşildlər ailəsinin üzvü Erik de Rotşildi təyin edib.[84] Özü isə "Ələddin layihəsi" təşkilatının Beynəlxalq Məsləhət Şurasının, eyni zamanda ən işlək qolu olan Vicdan Komitəsinin sədri vəzifələrini icra edir!?[85]

Sübut etməyə ehtiyac yoxdur ki, qlobal siyasi, hərbi, yəhudi, amerikan, fransız və s. elitasının daimi yığıncağı olan "Ələddin layihəsi" təşkilatı təkcə dialoqla bağlı müzakirələr aparmır. Burada bütün dünyada açar postlara kimlərin gətirilib-gətirilməməsi yönündə məsləhətləşmələr və səfərbərlik qərarları verilir.

Şübhə yoxdur ki, UNESCO-nun Azərbaycanla olan yüksək səviyyəli münasibətlərinin darmadağın edilməsinə belə naharların birində qərar verilib. Əks-təqdirdə sual olunur: Azərbaycanın münasibətlərinin ən yüksək səviyyədə olduğu İsrail elitasının, dünya yəhudi diasporunun "konseyində" nə

[83] http://www.projetaladin.org/en/leah-pisar-new-president-of-the-aladdin-project.html

[84] http://www.projetaladin.org/en/leah-pisar-new-president-of-the-aladdin-project.html

[85] http://www.projetaladin.org/fr/fr-36-5.html

üçün belə qərarlar verilir?

Araşdırmaçı şəbəkənin “dosyeləri” və s. informasiya hücumu nəticəsində Azərbaycanın imicinin qaralanması, onun UNESCO-dakı xoşməramlı səfirinin böhtanyaxma kampaniyasına start verməklə, məqsədyönlü şəkildə Odri Azulayın  BMT təşkilatına baş direktor gətirilməsi və artıq onun tarixində təkrar seçilən 2-ci qadın rekorduna imza atılması nəyin sayəsində mümkün olub? Təbii ki, Rotşildlər ailəsinin yaxın dostu, beynəlxalq erməni xeyriyyə təşkilatının Prezidentlər Şurasının sədri Andre Azulayın sayəsində...

Ölkəmizin İsraillə yüksək səviyyəli münasibətləri dünya ermənilíyinə rahatlıq vermir. Bu münasibətlərin hazırkı səviyyədə qalması, yuxarıda bəhs edildiyi kimi, Kasparovu da çox əsəbiləşdirir. Onun ən nüfuzlu qlobal yəhudi təşkilatına – Antidiffamasiya Liqasına (Anti Deffamation League) üzv seçilməsi, bu qurumun fəxri mükafatını alması məqsədlərin sürətlə həyata keçirilməsinə dəlalət edir.

“Ələddin layihəsi” təşkilatının yeni prezidenti Liya Pisarın tərcümeyi-halı da çox “sanballıdır”. Belə ki, o, ABŞ Prezidenti Bill Klintonun administrasiyası dövründə Milli Təhlükəsizlik Şurasının (National Security Council) kommunikasiya direktoru olub. O, Fransa-Amerika Fondu, Fransız İnstitutu Alyansı Française, Harriman Xarici Xidmət Mübadiləsi və Franko-Amerikan Fulbrayt Komissiyasının direktorudur. L.Pisar "Atlantikdə fırtına: Fransa və ABŞ İraqın qarşısında" (Storm on the Atlantic: France and the United States in Front of Iraq" (Fayard, 2010) kitabının müəllifidir.

İclaslarına bir-iki dəfə Azərbaycan və Türkiyənin səfirlərinin  dəvət edilməsi formal olmaqla, əsl niyyətləri maskalamaq məqsədinə xidmət edib.




***Şəkildə:***
***“Ələddin layihəsi” təşkilatının rəhbərləri - Andre Azulay və Baron Erik de Rotşild***

Xanım Azulayın rəhbərliyi dövründə Parisdə mənzillənən UNESCO-da daha böyük  qalmaqallar səngimir. Ən çox da onun təşkilat tarixində 2-ci dəfə seçilən qadın kimi rekorda nail olması üçün dünya erməniliyi səfərbər olur. O dərəcədə ki, xanım Azulayın təkrar seçilmək üçün lobbiçilik və qanunsuzluqlar Türkiyə səfiri Altay Cengizer tərəfindən xüsusi məktubla  193 ölkənin UNESCO nümayəndəsinin diqqətinə çatdırılıb.

Bununla belə erməni şəbəkəsi çox güclü olduğunu sübut edib.

### ➯ Odri Azulay UNESCO-ya necə gəlib çıxıb? Yaxud Fransanı idarə edən "qızlar"

Odri Azulayın yüksəlişi 2016-2017-ci illərdə Fransanın sosialist prezidenti Fransua Olland dövründə başlayıb. Səbəb: Ollandın 2-ci, rəsmi nikahsız, aktrisa olan həyat yoldaşı ilə ən yaxın, illərin rəfiqəsi olmasıdır. Prezident seçilən Olland dostluğu dəyərləndirib və onu Fransanın mədəniyyət naziri təyin edib.

Özü də "yüngül" prezident olan Ollandın yüngül əli ilə rəhbəri olduğu iqtidar Sosialist Partiyasının digər üzvü, "ermənidən çox erməni" kimi tanınan - Ann İdalqonu Paris meri təyin edilib, şəhər tarixində təkrar - 2-ci dəfə seçilən mer qadın kimi qalır. Beləliklə, Ollandın əli ilə 2-3-cü nəsil erməni qızların biri Fransanın mədəniyyət naziri, o biri isə Paris meri təyin olunur. Odri Azulayın buradan da UNESCO-ya gətirilməsi üçün müvafiq səfərbərlik başlayır.




*Şəkillərdə: Odri Azulay və Ann İdalqo ayrılmaz rəfiqələr*















**HAŞİYƏ:** Bu il İrəvana səfər edən A.İdalqo N.Paşinyana deyib: “Cənab baş nazir, biz həmişə Ermənistanın yanındayıq, bundan sonra da olacağıq. Ermənistan üçün bu ağır vəziyyətdə biz aydın mövqe ortaya qoymuşuq. İnanın, biz Ermənistanı və erməni xalqını tək qoymayacağıq”.





2022-ci ildə Fransa prezidenti “ermənidən artıq erməni” ola bilər və bu, Fransa tarixində ilk qadın prezident ola bilər!

62 yaşlı Paris meri Ann İdalqo 2022-ci il üçün Sosialist Partiyasından prezidentliyə namizəddir! Dünya erməniliyinin, ABŞ, İran və Hindistan iqtidarlarının onun prezident seçilməsinə dəstək verəcəyi və buna nail olacağı birmənalıdır. Rəqiblərinin şovinist Marin Le Pen və ultrasağçı televiziya eksperti Erik Zemmur olması onun şanslarını dəfələrlə yüksəldir.[86]

A.İdalqonun əri Jan Mark Jermen (Jean Marc Germain) Ollandın FSP partiyasında beynəlxalq əlaqələr üzrə rəhbər və parlamentari kimi Xankəndinə qanunsuz səfər etdiyi üçün Azərbaycan XİN-in qara siyahısındadır.

**408.Jean Marc Germain French Republic Parliament member, France National Parliament September 8, 2014**

İdalqonun əri üzvü olduğu Sosialist Partiyasının beynəlxalq məsələlər üzrə rəsmi şəxsi kimi “Daşnaksütyun” partiyası ilə əməkdaşlıq sazişinin imzalanmasının təşəbbüskarı olub. Bu partiyalar rəsmi tərəfdaşdır.

İdalqonun əri 44 günlük müharibə dövründə və indi də qondarma “Artsaxın tanınmasının” qızğın tərəfdarıdır.

[86] https://www.france24.com/en/live-news/20211014-french-socialist-party-picks-anne-hidalgo-as-its-candidate-for-presidential-election


Jean-Marc Germain
@jmgermain

De retour d'une mission au Haut-Karabakh avec @faureolivier, j'étais l'invité de @franceinfoplus pour témoigner des massacres dont ont été victimes les arméniens. Seule la reconnaissance de la République d'Artsakh permettra d'éviter un nouveau drame. francetvinfo.fr/monde/haut-kar...

Nouvelles d'Arménie and 9 others

7:42 PM · Dec 12, 2020 · Twitter Web App

Ann İdalqonun əri transmilli alüminium konsorsiumunun rəhbərliyinə gətirilib.

Onu da əlavə edək ki, Paris merinin müavini seçkilərini də erməni Anuş Toronyan (Anouch Toranian) udub.[87]


Anouch Toranian Elected Paris Deputy Mayor

by Asbarez Staff — July 9, 2020 in International, Latest, News, Top Stories

Anouch Toranian (left) with Paris Mayor Anne Hidalgo



[87] https://asbarez.com/anouch-toranian-elected-paris-deputy-mayor/

**Fransanın digər böyük şəhəri - Strasburqun da mer seçkilərində erməni qadın Janna Barseqyan qalib gəlib. Bir daha xatırladaq ki, “Sərhədsiz Reportyorlar” təşkilatını Strasburq şəhər meriyası da maliyyələşdirir.**

# ƏLAVƏLƏR

Qlobal araşdırmaçı şəbəkəyə və Kasparova milyonlarla maliyyə ayıran əsas sponsorlardan biri "Fritt Ord" təşkilatının prezidenti cinsi azlıq, LGBT fərdi (openly gay) Knut Olav  Amas və "həyat yoldaşı", jurnalist Knut Aasted Braten.  Azərbaycana demokratiya dərsi keçənlərin kimliyi  təkcə istehza deyil, həm də  hiddət və haqlı "Axı siz kimsiz?" sualını doğurur.









**Oslo Forumunun mükafatçısı Hafiz Babalı**






# IV FƏSİL.

## “ARAŞDIRMAÇILARIN” MEQA-SPONSORU: PYER (PƏRVİZ MURAD) OMİDYAR. QLOBAL AKTİVİZM VƏ KİBER-İNQİLAB ŞƏBƏKƏSİNİN ARXİTEKTORU. OMİDYAR AİLƏSİNİN ERMƏNİ KÖKLƏRİ

### ➩ e-Bay-in yaradıcısı Pyer (Rərviz Murad) Omidyarın - CIA işbirliyinə start verilməsi, qlobal araşdırmaçı şəbəkənin yaradılması

I fəsildə qlobal araşdırmaçı şəbəkənin yaradılma səbəbləri və formalaşma prosesləri ilə bağlı məlumat verildi. Məlum oldu ki, ABŞ rəsmi strukturlarının planı olan E.Snouden sızdırmaları e-Bay-in yaradıcısına təhvil verildi və qlobal jurnalist araşdırmaçı şəbəkəsinin qurulması ona həvalə edildi.

Qısaca desək, araşdırmaçılığın texnoloji təminatçısı, HiTech və sosial şəbəkə nəhənglərinə savaş açan əsas fiqurun kimliyi, hansı "fövqəladə gücə" malik olması böyük maraq doğurur. Tech-milyarderin özünün əsas peşəsini bir kənara qoyub onu siyasi fəaliyyətə, ən betəri, MKİ-CIA ilə işbirliyinə getməsinə vadar edən hansı səbəblər olub?

Son onillərdə dünya gündəmini zəbt edən rəngli və "rəqəmsal (Tvitter, Facebook) inqilablar"ın təhlilində 90-cı illərdən dövriyyədə olan "Soros faktoru" alternativi olmayan "mifə" çevrilib. İndiyə qədər ölkəmizdə də "Soros" amili xarici müdaxilənin yeganə himayədarı kimi təqdim edilir. Bu, səbəbsiz deyil və qlobal güclərin bəzi daha iri fiqurların məhz arxa planda qalması məqsədinə bağlıdır.

Kiberinqilab və total nəzarət dünyasının yaranmasının praktiki-texnoloji həllərinin təminatı və maliyyələşdirilməsində ilk sırada Pyer Omidyar durur.

Pərviz Murad - Pyer Omidyar 1967-ci ildə Fransada doğulub. Ata-anası Murad və İlahə Mir Cəlal Omidyar iranlı olub, Fransaya, daha sonra ABŞ-a köçüb. Omidyar 1995-ci ildə dünyada internet üzərində ilk hərrac/ticarət saytının - eBay-in yaradıcısı, E.Maskdan aldığı PayPal qlobal sisteminin də sahibidir. 31 yaşında milyarderlər siyahısına daxil olub. Elon Mask, Ceff Bezosla yeni texnologiyalar sahəsində həmkar olub.

**Haşiyə:** Maraqlı olan məqam Omidyarı ermənilərin fəxrlə "erməni əsilli iranlı" adlandırmasıdır. Sitat: "Fransa doğumlu, erməni əsilli, iranlı sahibkar və xeyriyyəçi / iqtisadçı və eBay hərrac saytının təsisçisi/sədri". ("French-born Armenian-Iranian entrepreneur and philanthropist/economist, and the founder/chairman of the eBay auction site".)

**Biography: Pierre Omidyar, founder of eBay**




Pierre Omidyar is best known for founding the popular online auction website, eBay. Omidyar was born on June 21st, 1967 in France. Omidyar was born in France, but is actually of Armenian and Iranian decent. Omidyar is an entrepreneur and a philanthropist, as well as an economist. He founded the Omidyar Network in 2004 in partnership with his wife, in order to move into for profit functions as a philanthropcapitalist investment firm.

Analitiklər Omidyarı "qəribə milyarder" adlandırır və sual verirlər: öz sərvətini yalnız elm, texnologiya və biznesə xərcləyən, həmkar-dostları Bezos və Maskdan fərqli olaraq, nəhəng şirkətin banisi Omidyarın tamamilə siyasətə gəlməsini şərtləndirən nə olub?

Pyer Omidyar fiquru, onun MKİ-CIA ilə əməkdaşlığı: ABŞ-ın "rejim də-

yişdirmə müharibələrində” (regime change wars) dünya QHT, sivil toplum, “azad media” adı altında planetar müxalif qüvvələrin və s. maliyyələşdirilməsi, texnoloji inqilab və süni intellektin (5G, neyro-çiplər və s.) tətbiqi ilə vahid mərkəzdən idarə edilən total izləmə və nəzarət sistemini yaratması yönündə təhlillər mövcuddur. Qısa deyilsə, “Omidyarın “tech-milyarderdən siyasi radikala” çevrilməsinin səbəbi kimi E.Snouden hadisəsinin, “WikiLeaks” qalmaqalının olması vurğulanır. Bəzi analitiklər bu məsələnin araşdırılmasına vaxtını və illərini həsr edib.

Əvvəldə qeyd edildiyi kimi, ABŞ “WikiLeaks” nümunəsində getdikcə inkişaf edən sızdırma, sındırma (hack), kiberizləmə (surveliance) və s. texnologiyalarla özünü hədəfə alanlara, eləcə də getdikcə sərhədsiz imkanlara malik olan texnoloji IT nəhənglərinə qarşı durmaq üçün yalnız onların bənzərini yaratmaqla mübarizə apara bilərdi. Məhz bu məqsədlə C.Assanc kimi müstəqil deyil, dövlətin sponsorluq etdiyi, yönəltdiyi yeni qalmaqal yaratmaq və sınaqdan çıxarmaq məsələsində əvvəlcə Eduard Snouden işi quraşdırılır. “WikiLeaks” qalmaqalından sonra ABŞ-da məhz belə fiqurlarla - tech-milyarder, Vaşinqton siyasi rəhbərliyi, Mərkəzi Kəşfiyyat İdarəsi, media şəbəkəsi, kibertəhlükəsizlik, izləmə və hakerlik texnologiyaları sahəsində ən qabaqcıl laboratoriyalarla işbirliyinin qurulmasına nail olunur.

Ümumi qənaətə görə, E.Snoudenin “əldə etdiyi” sızma fayllar ABŞ xüsusi xidmət qurumları tərəfindən planlı şəkildə Pyer Omidyara təqdim edilir. “WikiLeaks” təəssüratını unutdura biləcək “araşdırmaçı” jurnalist orqanının yaradılması ona həvalə edilir. Omidyar “The Guardian” nəşrində çalışan jurnalist Qlen Qrinvald və İraqda müharibə, həmçinin Quantanamo həbsxanası ilə bağlı sənədli filmlərin müəllifi Laura Poitras tərəfindən simvolik adda “The Intercept” (“Ələkeçirmə”, “Перехват”) adlı media orqanı yaradır. Onun bu kiçik media agentliyinə 250 milyon dollar maliyyə ayırması sensasiya hesab edilir.

Omidyar B.Klinton dövründən bəri Demokratlar Partiyasının əsas maliyyəçisidir. Demokratların prezident seçkilərinin maliyyə təminatçısı olması, Obama və Baydenlə şəxsi dostluğu ilə radikal siyasiləşib (Omidyar is a highly politicized actor). ABŞ və onun xaricində vətəndaş cəmiyyəti, jurnalistika, şəffaflıq və s. sahədə çalışan elə bir təşkilat və ya şəxs yoxdur ki, onu Omidyar maliyyələşdirməsin”.[88]

Qısa deyilsə, Sorosun adı çıxıb. Omidyar qlobal “5-ci kalon ordusunun” formalaşdırılmasında açar fiqurlardan olsa da, adı həm dünyada, xüsusilə də Azərbaycanda demək olar ki naməlumdur. Bu ABŞ-ın məqsədyönlü siyasəti olmaqla yanaşı, normal sayılmayacaq təhdidlərin mənbəyini adekvat görməyə mane olan məsələdir.

Mənbələrdə qeyd edilir ki, Omidyar təkcə ABŞ-ı qane etməyən ölkələrdə “rejimdəyişmə siyasətini” (US regime change industry), yaxud MKİ-nin “soyuq müharibə” dövründəki rolunu yerinə yetirməklə kifayətlənmir. Paralel olaraq görülən işləri sadəcə sadalamaq belə çox vaxt aparır. Yeni missiya ABŞ-ın maraqlarına uyğun təhlükəsizlik təminatının ən müasir tech-dizayn həllərini müəyyən etməkdir.

Başqa sözlə, texnoloji inqilabın ön cəbhəsində - süni intellekt, deep-feyk, dezinformasiya və s. əsaslı informasiya müharibəsi, seçkilərə müdaxiləyə imkan verən mikrotargetinq, pandemiyanın tətiklədiyi total izləmə sistemlərinin sui-istifadəsi, sosial vətəndaş müha-

[88] https://nymag.com/intelligencer/2014/10/pierre-omidyar-first-look-media.html

ribəsi (“social civil war”) USAID-in “Qlobal İnkişaf Laboratoriyası” (Global Development Lab) çərçivəsində virtual məkanda “Mülki Çevik Vətəndaş Qrupları”nın, “Sürətli Ekspedisiya Komandaları” təşəbbüsünün, MKİ-nin “Sərhəd Dizayn Qrupu”nun (Frontier Design Group) müştərisi kimi onlarla layihələr həyata keçirilir.

Omidyar onun xüsusi xidmət qurumları ilə işbirliyini ifşa edən istifadəçi hücumlarına tab gətirməyərək, 2019-cu ildə Tvitter səhifəsini birdəfəlik bağlayıb.







Hazırda Facebooka qarşı kampaniyanı maliyyələşdirən də Omidyardır:






### ⇨ Omidyar yeni qlobal etiraz, aktivizm və kiber-inqilab şəbəkəsinin banilərindəndir

Araşdırmaçılıq və onun meqa-sponsorlarının təmin edilməsi digər tərəfdən Vaşinqtonun Yaxın Şərq müharibələrinin fəlakətli nəticələri fonunda onun müstəqil ölkələrə qarşı insan haqları ritorikasından istifadəsinin səmərəsini sıfıra endirməsi, yeni şüar-ritorika bəyan etmə zərurəti ilə bağlı idi.

Beləliklə, yeni şüar-ritorika: "korrupsiyaya qarşı" qlobal (hibrid informasiya) müharibə, onu tətikləyən araşdırmaçı jurnalistika və sızdırmalar geniş tətbiq edilməyə başlandı. Bu isə tech-milyarderlərin, MKİ-CIA-nın "Hack. Dump. Divide" kiberhücum və sızdırma əməliyyatlarının daha intensiv və daha geniş coğrafiyaya yayılmasını şərtləndirdi. “Araşdırmaçı jurnalist” adı altında “haker-developer, informasiya brokerləri, insayderlər, xəbərçilər/“whisleblower” ordusunun qlobal şəbəkələri, bütün ölkələrdə onlarla filialları təsis edildi, minlərlə insayder-jurnalistlər cəlb olundu.




Bu şəbəkənin maliyyələşdirilməsi üçün ayrıca 2004-cü ildə nəhəng xeyriyyə təşkilatı - “Omidyar Netvork”, onun da nəzdində araşdırmaçılığın maliyyələşdirilməsi üçün “Luminate” fondu yaradılıb, məqsədi birmənalı elan edilib: “Omidyar şəbəkəsi həyatımızı idarə edən sistemləri kökündən dəyişdirəcək struktur dəyişiklikləri həyata keçirən (to catalyze social change) sosial dəyişiklik qurumudur.

OMIDYAR NETWORK™

**Omidyar Network is a social change venture that works to bring about structural changes that will fundamentally shift the systems that govern our daily lives.**

Rəngli inqilablar, Ukraynadakı "Maydan" hərəkatlarında Omidyar həlledici olsa da, Sorosun adının öndə getməsi strateji məsələ kimi ABŞ-ı qane edir.

## Pierre Omidyar co-funded Ukraine revolution groups with US government, documents show

**BY MARK AMES - FEBRUARY 28, 2014**

Pando has confirmed that the American government – in the form of the US Agency for International Development (USAID) – played a major role in funding opposition groups prior to the revolution.
Moreover, a large percentage of the rest of the funding to those same groups came from a US billionaire who has previously worked closely with US government agencies to further his own business interests.....
But that's not the shocking part.
What's shocking is the name of the billionaire who co-invested with the US government. Step out of the shadows....Pierre Omidyar.
Yes, the founder and publisher of Glenn Greenwald's government-bashing

PANDO

## Pierre Omidyar co-funded Ukraine revolution groups with US government, documents show

нії «Фільтруй Раду!»
грудень 2012 року

| | | | |
|---|---|---|---|
| нтр ЮЕЙ» | UNITER (PACT, USAID) та Omidyar Network Fund | $421, 223 | Координацію роботи усіх організаторську роботу в рамк листопад 2012 року здійсн громадської організації «Цент координаторів, стратегів, пе комунікаційний менеджер, ре відео оператор, спеціаліст ЧЕСНОметру та креативний ме рік фактично перетворився цілодобово працював як май подій руху.<br><br>Фахівці «Центру ЮЕЙ» протяг національного інформаційного провели більше сотні пуб регіональних центрах, в тому столи, брейнсторми, медіа-клу<br><br>Разом із ініціаторами руху ЧЕС масштабні регіональні тури, регіональні осередки ЧЕСНС |

NEWS



By Mark Ames
February 28, 2014

Ebay Billionaire Helped Finance the Coup in Kiev.
His Protege Now Works Closely with Neo-Nazis
http://russia-insider.com/en/export/929

Omidyar-funded candidate takes seat in new Ukraine parliament

Omidyarın üzərində çalışdığı Hindistan və Afrikada yaradılan onlarla məxfi qrifli "sosial-iqtisadi davranışın idarə edilməsi", "elektron bankçılıq və maliyyə sistemini, son dövrdə isə pandemiya və izləmə şəbəkəsini tətbiq etmək" adı altında inkişaf etməkdə olan ölkələri 5G və neyro-çip texnologiyalarının, NATO-nun "cognitiv-beyin müharibələrinin" (Havana sindromu və s.) sınaq laboratoriyasına çevirməsi yönündə ciddi işlər görüldüyü haqqında təhlillər mövcuddur. Mediada tənqidçilər onu "solçu total izləmə (texnologiyası) milyarderi" (left-wing surveillance billionaire') adlandırır.

Omidyarın təşəbbüsü ilə yaradılan, aşkar həyata keçirilən qlobal etiraz texnologiyaları, jurnalist, şəffaflıq, demokratiya eksperimentləri ilə bağlı orijinal layihələri ölkəmizdə hələlik təhlil edilməyib. Məsələn, qlobal "Fakt-Chek" (International Fact-Checking Network (IFCN) şəbəkəsi Omidyarın şəxsi təşəbbüsüdür ("Fakt-Chek Azərbaycan"a milyonlar ayrılan layihəyə Əfqan Muxtarlının həyat yoldaşı L.Mustafayeva rəhbərlik edir. Maliyyə Gürcüstan üzərindən verilir). Layihə Google News Lab (!?) tərəfdaşlığı ilə iqtidarın məlumatlarını "saxta kimi qələmə verməyə və ifşa etməyə xidmət edir".[89]

Hamımıza məlum olan Change.org və Nationbuilder daxil olmaqla, 240 təşkilatı dəstəkləyən "Governance and Citizen Engagement Initiative" layihəsinə hər il dünyanın 18 ölkəsində 314 milyon dollar sərmayə qoyulur.

Bütün dünyada azadlıq, şəffaflıq, media azadlığı, demokratiya, insan hüquqları və s. reytinqlərin əsas meqa-donoru Omidyar Netvorkdur.

### ⇨ Omidyar "qlobal araşdırmaçı jurnalist" şəbəkəsinin yaradıcısı və himayədarıdır

Beləliklə, Omidyarın şəxsi səyləri nəticəsində "WikiLeaks" formatında, E.Snouden mexanizmi ilə (məlumat sızdırma) fəaliyyət göstərən təşkilat yaratmaqla bağlı CIA-USAID və s. məsləhətləşmələri nəticəsində "qlobal araşdırmaçı jurnalist şəbəkəsi" yaradılır. Məlum OCCRP, Araşdırmaçıların Beynəlxalq Konsorsiumu - ICIJ və GIJN, onların qlobal miqyasda yüzlərə filialları təsis edilir. Yeni formatlı anti-WikiLeaks "Sızdırmalara" (Leaks) - ofşor sənədlərinə start verilir. 2017-ci ildə Omidyar "Panama sənədləri" üçün 100 milyon dollar, ICIJ-ə 6 milyon dollar ayırıb.[90] **Sitat:** "Pyer Omidyar 2012-ci ildə 1 milyard dollarlıq meqa-donor olan ən gənc şəxs olub. Müstəqil mediaya 1,9 milyard dollardan çox töhfə verib. Təkcə 2020-ci ildə Omidyar mediadan əlavə birliklərə 441 milyon dollar verib".

[89] https://www.factcheck.org/

[90] Billionaire Pierre Omidyar's Foundation Commits $100 Million To Support// https://www.forbes.com/sites/katevinton/2017/04/05/billionaire-pierre-omidyars-foundation-commits-100-million-to-support-investigative-journalism/?sh=26e559cc69f6

## 23. Pierre Omidyar: $1.9 billion+




Pierre Omidyar was the youngest person to have given away $1 billion when he hit the milestone in 2012 aged 45. So far the eBay founder has contributed more than $1.5 billion to the Omidyar Network, a "philanthropic investment firm" that supports both profit and non-profit organizations predominantly in the tech sector. While that money doesn't exclusively benefit charitable causes, Omidyar has stacked up the donations over the years, and has given away a large chunk of his fortune to help others. In 2020 alone Omidyar gave $441 million to various causes.

Təbii olaraq, bizi Azərbaycanı hədəfə alan, Omidyar və ABŞ xüsusi xidmət qurumlarının xeyir-duası ilə yaradılan, Xədicə İsmayılın direktor və üzvlüyündə olduğu OCCRP, ICIJ və GIJN qlobal şəbəkələrinə ayırdığı maliyyə maraqlandırır. Onu da vurğulayaq ki, bu təşkilatlar "Jurnalistlərin İnkişafı Şəbəkəsi" (Journalism Development Network (JDN) adlanan kanal vasitəsilə, həm də birbaşa maliyyələşdirilir. "Luminate" saytında bütün maliyyə hesabatlarının olması işi asanlaşdırır. Araşdırma şəbəkəsinə ayrılan yüz səhifəyə yaxın maliyyənin rəqəmləri "sarsıdıcıdır".

OCCRP-in səhifəsində sponsorları ilə bağlı bu elanda xarici ölkələrin rəsmi XİN-ləri istisna olmaqla, yerdə qalan bütün təşkilatlar da Omidyar-Luminate tərəfindən maliyyələşdirilir.



OCCRP is funded by
-US State Dept
-USAID
-NED
-EU
-UK
-Sweden
-Denmark
-billionaire Soros
-billionaire Omidyar
-Ford Foundation (CIA front)
-Rockefeller Brothers Fund (CIA front

Search Twitter

(thegrayzone.com/author/ben-nor...) || @Moderate_Rebels producer || Show: rokfin.com/benjaminnorton

ICIJ
@ICIJorg
Follow
The world's best cross-border journalism. #FinCENFiles #LuandaLeaks #ImplantFiles #ParadisePapers #PanamaPapers #SwissLeaks #LuxLeaks #OffshoreLeaks

Organized Crime a...
@OCCRP
Follow
It takes a network to fight a network. Exposing crime and corruption so the public can hold power to account. Donate: occrp.org/en/donate RT ≠ endorsement

## WHO SUPPORTS OUR WORK

The Organized Crime and Corruption Reporting Project is a 501(C)(3) organization. We are incredibly grateful to the following institutional donors that make our work possible.

- **The Bay and Paul Foundations**
- **Rockefeller Brothers Fund**
- **Catharine Hawkins Foundation**
- **Sigrid Rausing Trust**
- **European Instrument for Democracy and Human Rights**
- **Skoll Foundation**
- **Ford Foundation**
- **The Swedish International Development Cooperation Agency**
- **Fritt Ord Foundation**
- **United Kingdom Foreign, Commonwealth & Development Office**
- **International Center for Journalists**
- **University of Missouri School of Journalism**
- **Luminate**
- **U.S. Agency for International Development**
- **Ministry of Foreign Affairs of Denmark**
- **U.S. Department of State**
- **National Endowment for Democracy**
- **Vital Strategies**
- **Open Society Foundations**
- **Oak Foundation**

### ➯ "Luminate" fondunun Azərbaycanı hədəfə alan OCCRP və ICIJ üçün maliyyəsi: rəqəmlər və statistika

Mənbədə araşdırmaçılara ayrılan maliyyə çox səxavətlidir. Bilavasitə Azərbaycanı hədəfə alan JDN və OCCRP-yə ayrılan maliyyə, sitat:“Journalism Development Network, "Independent Media", Global, 2018, "Current Partner", Non-Profit, 800.000, "Program Grant", "To support OCCRP, an internationally renowned investigative journalism non-profit focussed on organised crime and corruption."

Journalism Development Network,"Independent Media", Global, 2020, "Current Partner", Non-Profit, 400.000, "Project Grant", "To provide two-year core funding to support OCCRP to diversify revenue, build capacity, and strengthen audience engagement".

Ayrılan pullar “Panama, Pandora və Paradise” illəri ilə üst-üstə düşür.[91]

[91] https://luminategroup.com/portfolio;https://luminategroup.com/investee/occrp-1

Luminate

| Organisation name | Primary impact area | Geographic focus | Year ▲ | Status | Type | Amount committed (US$) |
|---|---|---|---|---|---|---|
| Journalism Development Network | Independent Media | Global | 2020 | Current Partner | Non-Profit | 400,000 |
| Journalism Development Network | Independent Media | Global | 2018 | Current Partner | Non-Profit | 800,000 |

| Organisation name | Primary impact area | Geographic focus | Year ▲ | Status | Type | Amount committed (US$) |
|---|---|---|---|---|---|---|
| International Consortium of Investigative Journalists (ICIJ) | Independent Media | Global | 2021 | Current Partner | Non-Profit | 1,500,000 |
| International Consortium of Investigative Journalists (ICIJ) | Independent Media | Global | 2017 | Current Partner | Non-Profit | 4,500,000 |

Omidyar və OCCRP və ICIJ maliyyə kanalı JDN vasitəsi ilə hələ “Transparency İnternational” təşkilatını da maliyyələşdirir.[92]

| Other (research institutes, other NGOs, other) | | |
|---|---|---|
| Journalism Development Network (JDN) | 612,958 | 452,207 |
| Christian Michelsen Institute (CMI) | 143,415 | 142,404 |
| Financial Transparency Coalition | 70,719 | 84,293 |
| International Republican Institute (IRI) | 34,189 | - |
| International Association of Women Judges (IAWJ) | 16,688 | 90,692 |
| Other (less than Euro 1,000 each) | 912 | 6,887 |
| Citizens for Europe | - | 6,000 |
| Civil Forum for Asset Recovery e.V. (CiFAR) | - | 5,160 |
| Other (research institutes, other NGOs, other), total | 878,881 | 787,643 |
| **Restricted income, total** | **17,485,279** | **21,212,317** |

Qalmaqalları işıqlandıran xüsusi nəşrlərə - BBC və "The Guardian"a da səxavətli maliyyə ayrılır. Diqqəti cəlb edən həm də Fransada yaşayan vətən xaini Məhəmməd Mirzəlini müdafiə edən “Sərhədsiz Reportyorlar”a ayrılan milyonlardır.

[92] https://images.transparencycdn.org/images/TI-S-financial-statements-as-of-31-Dec-2020.pdf

RSF REPORTERS WITHOUT BORDERS

- The **Ford Foundation** supports our transition strategy and, in particular, the overhaul of our website.
- **Luminate**: the organization invests in and helps scale innovative organizations to catalyze economic and social change.

**AUTHORITIES, AGENCIES AND OTHER ENTITIES**

- The **French Development Agency (AFD)** helps us to fulfil our mandate and to carry out specific projects in countries it regards as priorities.
- The European Commission's **European Instrument for Democracy and Human Rights (EIDHR)** supports journalists in difficulty by means of the ProtectDefenders.eu project.
- RSF is a member of **IFEX, the Global Network Defending and Promoting Free Expression**.
- The **International Organization of the Francophonie (OIF)** supports the publication and distribution of our *Handbook for Journalists during Elections*.
- **UNESCO** supports the publication and distribution of our *Handbook for Journalists during Elections*.

*“Reporters Without Borders, "Independent Media", Global, 2017, "Alumni Partner", Non-Profit, 1.000.000, "Project Grant", "To support Reporters Without Borders, which promotes and defends the freedom to be informed and to inform others throughout the world."*

*BBC Media Action, "Independent Media", Global, 2019, "Alumni Partner", Non-Profit, 200.000, "Project Grant", "To support the design of an international fund for public interest media."*

Diqqəti cəlb edən əsas məsələ Azərbaycana maliyyənin əvvəllər Gürcüstandan, son dövrdə isə Ukrayna üzərindən gəlməsidir. Ukraynaya ayrılan milyon və milyardarası maliyyə onun Azərbaycana da gəlməsini deməyə tam əsas verir.

HiTech sahəsində çox tanınmış mütəxəssis, milyoner, Facebooka alternativ yaratmaq üzərində çalışan, Eynulla Fətullayevin azad edilməsi üçün prezidentin Tvitter səhifəsinə total hücum təşkil edən Etan Sukerman və onun 45 dildə yayımlanan (!?) “Qlobal voise” təşkilatı da "Luminate"nin maliyyəsi ilə yaradılıb. Azərbaycanda “rəqəmsal hüquqlar, avtoritarizm, izləmə, şəbəkələrdə müxalifətə hücumlar” və s. mövzular üzrə hesabatlar hazırlayan Arzu Qeybulla bu təşkilatda yuva salmaqla yanaşı, onun üçün ayrıca “Coda Story” təşkilatı yaradılıb. Maliyyə mənbəyi isə məlumdur.

**WE WOULD LIKE TO OFFER OUR SPECIAL THANKS TO:**

Global Voices was launched as a project of the Berkman Center for Internet and Society at Harvard Law School. Their institutional and financial support made Global Voices possible.

We are grateful to the The Omidyar Network for their ongoing support of our administrative section, our editorial staff, and Rising Voices.

The Media Development Investment Fund (MDIF), for their strategic planning and financial support. MDIF is a mission-driven investment fund for independent news outlets.

Global Voices editorial projects, including RuNet Echo. They also support GV Advocacy, Rising Voices, the Technology for Transparency Network, our core operations, and our summit meetings.

Bu il Nobel Sülh mükafatı alan jurnalist Mariya Ressanın təşkilatına hər il ən azı 5 milyon dollara yaxın maliyyə ayrılır. Mətbuat konfransında bununla bağlı ona ünvanlanan sual onu çaşdırıb.[93]

*Maria Ressa admits Rappler received millions for 'US left-wing surveillance billionaire'? Did Maria Ressa admit that Rappler received $4.5 million (or around 225 million pesos) of 'investments' (1:58), part of which came from US left-wing billionaire Omidyar that has been caught funding anti-government organizations worldwide?*

Bu qədər maliyyənin hətta Omidyarın belə tək ödəməsini şübhə altına alan təhlilçilər bunun həm də MKİ-nin pullarının olduğu qənaətinə gəliblər.







[93] https://www.facebook.com/idsicenter/videos/244467870966532

### ➯ Pyer Omidyarın fəaliyyətində yeni istiqamət: Omidyar-Hollivud əməkdaşlığı

Son dövrdə “Laundramat, Kürü diplomatiyası, ofşorlar və s.” ilə bağlı Netflix səviyyəsində, Hollivudun ən tanınmış aktyorlarının ifasında (Meril Strip, A.Banderas və s.) filmlərin hazırlanması Omidyarın dəstəyi ilə yeni və çox təsirli üsul kimi hibrid informasiya müharibəsinin arsenalına daxil edilib.

**Oğulun gücünə güc qatan ana - İlahe Mir Cəlalın erməni məhəbbəti**

Omidyarın gücünə-güc qatan daha bir amil, ABŞ-da ondan heç də az məşhur olmayan anası, linqvist-akademik İlahe Mir Cəlal Omidyardır. İlginc məqamlardan biri İlahe Omidyarın tədqiqatından Mərkəzi Kəşfiyyat İdarəsinin proqram-alqoritm dillər hazırlanmasında istifadə etməsi ilə bağlıdır.

Onun yaratdığı "Roşan (Rövşən) İran Mədəni İrs İnstitutu” və filialları “Omidyar imperatorluğunun akademik uzantısı” adlandırılır. Buradakı təqaüd proqramları əsasında dünya universitetlərində siyasiləşmiş, anti-Amerika və anti-İsrail alimlərinin maliyyələşdirilməsinə dair araşdırmalar da var.[94]

Digər narahatedici istiqamət İlahe Mir Cəlalın ABŞ, Kanada, Fransa və s. ölkələrdə çoxsaylı “İlahe Mir Calali İran Araşdırma İnstitutları”nın (Elahé Omidyar Mir-Djalali Institute of Iranian Studies) yaratmasıdır. Bu elmi mərkəzlərdə ermənilər də çalışır, əməkdaşlıq və dostluq assosiasiyaları (məsələn, Iran-Armenia Friendship Association) təşkil edilir.

Pyerin həyat yoldaşı Pamela Omidyarın da CIA ilə yaxın olan qurumlar-




la texnoloji inqilabın ön cəbhəsində gedən tədqiqatları maliyyələşdirməsi qeyd edilir. Ümumilikdə, texnoloji inqilaba total nəzarət və idarə edilən qlobal cəmiyyət yaradıcılığı istiqamətindən əlavə, müxtəlif dövlətlər daxilində “5-ci kalonun” yaradılmasına milyardlar xərcləyən Omidyar Netvorkun maliyyə hesabatlarını bir tədqiqat çərçivəsində əhatə etmək qeyri-mümkündür. Hesabatın sonunda maliyyə hesabatlarının link/mənbəyi göstərilir.

[94] https://www.meforum.org/62170/ebay-founder-funds-anti-us-anti-israel-scholars

## Omidyar Netvorkun bütün maliyyə hesabatları:[95]




**Omidyar Network Fund, Inc.**
**Consolidated Statements of Financial Position**
**December 31, 2017 and 2016**

| | 2017 | 2016 |
|---|---|---|
| **Assets** | | |
| Cash and cash equivalents | $ 136,346,442 | $ 71,990,262 |
| Interest and dividends receivable | 794,849 | 887,389 |
| Investments | 349,516,843 | 340,452,240 |
| Program and mission related investments | 58,543,874 | 49,695,162 |
| Total assets | $ 545,202,008 | $ 463,025,053 |
| **Liabilities and Net Assets** | | |
| Accounts payable and accrued liabilities | $ 72,948 | $ 439,590 |
| Grants payable | 14,515,021 | 16,298,053 |
| Deferred federal excise tax liability | 2,500,563 | 1,830,094 |
| Total liabilities | 17,088,532 | 18,567,737 |
| Unrestricted net assets | 528,113,476 | 444,457,316 |
| Total liabilities and unrestricted net assets | $ 545,202,008 | $ 463,025,053 |

**Omidyar Network Fund, Inc.**
**Consolidated Statements of Financial Position**
**December 31, 2019 and 2018**

| | 2019 | 2018 |
|---|---|---|
| **Assets** | | |
| Cash and cash equivalents | $ 35,498,587 | $ 55,843,806 |
| Interest and dividends receivable | 7,528,792 | 10,435,449 |
| Investments | 388,374,062 | 372,825,523 |
| Program and mission related investments | 59,459,038 | 54,380,588 |
| Total assets | $ 490,860,479 | $ 493,485,366 |
| **Liabilities and Net Assets** | | |
| Accounts payable and accrued liabilities | $ 140,184 | $ 372,919 |
| Grants payable | 14,975,622 | 10,702,019 |
| Deferred federal excise tax liability | 728,764 | 1,079,960 |
| Total liabilities | 15,844,570 | 12,154,898 |
| Net assets without donor restrictions | 475,015,909 | 417,729,718 |
| Net assets with donor restrictions | - | 63,600,750 |
| Total net assets | 475,015,909 | 481,330,468 |
| Total liabilities and net assets | $ 490,860,479 | $ 493,485,366 |

**Omidyar Network Fund, Inc.**
**Consolidated Statements of Financial Position**
**December 31, 2020 and 2019**

| | 2020 | 2019 |
|---|---|---|
| **Assets** | | |
| Cash and cash equivalents | $ 33,121,002 | $ 35,498,587 |
| Interest and dividends receivable | 2,686,117 | 7,528,792 |
| Investments | 382,034,083 | 388,374,062 |
| Program and mission related investments | 72,197,578 | 59,459,038 |
| Total assets | $ 490,038,780 | $ 490,860,479 |
| **Liabilities and Net Assets** | | |
| Accounts payable and accrued liabilities | $ 33,798 | $ 140,184 |
| Grants payable | 8,880,000 | 14,975,622 |
| Current and deferred federal excise tax liability | 1,414,361 | 728,764 |
| Total liabilities | 10,328,159 | 15,844,570 |
| Net assets without donor restrictions | 479,710,621 | 475,015,909 |
| Total net assets | 479,710,621 | 475,015,909 |
| Total liabilities and net assets | $ 490,038,780 | $ 490,860,479 |

[95] https://omidyar.com/financial-documents/

## ⇨ EPİLOQ ƏVƏZİ: Öz adını özgəsinə qoymaq

Qərb araşdırmaçı şəbəkəsinin israrla başqa ölkələrə sırımaq istədiyi "mega-leaks" layihələrin mifologiyadan götürülmüş adları, camaşırxana-laundramat fenomenləri acı həqiqəti ortaya qoyur: bunların hamısı bir Qərb hadisəsidir, "kəşfləridir". Xatırlayaq:

**1.** "Ofşorlar" araşdırmaçı şəbəkənin deyil, qədim Yunanıstana, həmçinin indi də Qərb məkanına aid qurumlardır, "ixtiralardır". Antik dövrdə Yunan və Finikiya tacirləri iki faizlik idxal və ixrac vergisinin tətbiq olunduğu qədim Afina ərazisindən yan keçmək üçün yaxınlıqdakı adalardan gedirdilər.[1]

**2.** "Çirkli pulların yuyulması" - "laundramat" termini ilk dəfə 1930-cu illərdə, amerikalı qanqsterlərlə bağlı yaranıb. Yerli oğru dünyası - mafiya cinayətkar biznesdən gələn vəsaitləri leqallaşdırmaq üçün saysız-hesabsız camaşırxana -paltaryuma şəbəkəsi açır, burada "çirkli pulları yuyur", leqallaşdırırdı. Aidiyyəti vergi qurumları çoxsaylı kiçik müəssisələr şəbəkəsində gəlirlərə nəzarət etməkdə çətinlik çəkirdi. Bu da cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini (çirkli pulları) real gəlirə əlavə etməyə imkan verirdi.

**3.** "Pandoranın qutusu" yunan mifologiyasının ən əhəmiyyətli əfsanələrindən biridir. Olimpdən odu alıb insanlara verən Prometey (yunan dilindən tərcümədə "peyğəmbər, kahin") haqqında mifdən məlumdur. İnsanlar odu aldıqdan sonra xoşbəxt olur, aclıqdan, soyuqdan xilas olur, xəstəliklər və ölümlər azalır. Artıq tanrılardan asılı olmur. Buna görə də Zevs Prometeyi ağır cəzalandırır. Onu Qafqazdakı dağa zəncirləməyi əmr edir. İnsanları cəzalandırmaq üçün tanrılardan ona çox gözəl bir qız yaratmağı xahiş edir və Prometeyə göndərir. Zevsdən yaxşılıq gözləməyən Prometey hədiyyədən imtina edir. Pandoranı Prometeyin qardaşına verirlər. Prometey qardaşına xəbərdarlıq etsə də, gerisi məlumdur. Pandora həmin qutunu açır və... qutudakı bütün pisliklər çölə çıxır. Qutunun dibində qalan tək ümid isə... heç şübhə yoxdur ki, XXI əsrin Qərb dünyası ilə bağlı deyil, tam əksinədir. **Müasir Pandoraların başlıca hədəfi müstəqil siyasət yürütməklə öz xalqlarının maraqlarına xidmət edən, bütün dünyanın susduğu haqsızlıq və ədalətsizlikləri milli birliklə bərqərar edən, xalqına Zəfər gətirən müasir Prometeylərdir.**

## ⇨ NƏTİCƏ

❖ Analitik hesabatda “Araşdırmaçı jurnalistika: yaradılması və qlobal şəbəkəyə çevrilməsinin məqsədləri, aktorları, hədəfləri” adlanan fəsildə ABŞ-ın son 30 ildə reallaşdırdığı informasiya geosiyasətinin radikal yenilənməsinə diqqət cəlb edilir. “WikiLeaks” layihəsinin səbəb olduğu bu geosiyasətdə Culian Assancdan Edvard Snoudenə qədər transformasiya edən maliyyə sirlərinin kiberkəşfiyyatla anonim və qanunsuz sızdırma və tirajlama mexanizminin necə yaradılması izlənilir. Həmin vaxta qədər ABŞ-da ölkədaxili prosesləri təhlil edən araşdırmaçı jurnalistikanın Amerika xaricinə istiqamətləndirilməsi və qlobal şəbəkəsinin yaradılması bu mexanizmin tətbiqinə hesablanmışdı. Dünyada rəngli inqilabların başlaması, müxtəlif ölkələrdə “rejim dəyişdirən müharibələr” ("Regime-changing wars") ssenarisi tam gücü ilə tətbiq edildiyi halda, Azərbaycanın yeni inkişaf mərhələsində Prezident İlham Əliyevin ölkə rəhbərliyinə gəlməsi ilə onun dəf edilməsi yarandığı ilk vaxtdan Azərbaycanın hədəfə alınmasının əsas səbəbləri sırasındadır.

❖ Baş verənlər Ermənistan Prezidenti A.Sarkisyanın bəyan etdiyi milli rebrendinq - “Ermənistan kiçik dövlət, qlobal millətdir” (“Armenia is small state-global nation)” devizini həyata keçirmək niyyətlərinə dəlalət etməklə, Vətən müharibəsində görünməmiş məğlubiyyətdən sonra dünya ermənilərinin revanşizm strategiyası ətrafında səfərbər olmasının göstəricisi kimi səciyyələndirilib. A.Sarkisyana görə, “bu deviz həyata keçirilərsə, ermənilər toparlana, XXI əsrə hakim ola bilərlər”.

❖ Hesabatda “insan hüquqları” sahəsində beynəlxalq təşkilatların Azərbaycan əleyhinə qərəzli münasibətinin dərindən araşdırılması, erməni faktorunun burada da dərindən kök salması, maskalanması və olduqca fəallaşması faktlar əsasında göstərilib.

❖ Azərbaycanın beynəlxalq imicinə zərbə vurulması, onun mənfi obrazının yaradılması yönündə yeni qlobal miqyaslı metodların “ixtira” edilməsi tədqiqatçıların hibrid müharibənin yeni üsulu adlandırdığı “leqal müharibələr”in (“legal warfare”) hüquqi “mexanizmlərinin” müəllifi qismində də eyni - erməni və ya ermənipərəst qüvvənin çıxış etməsi aşkara çıxarılıb. Hibrid “leqal müharibələrin” bu mexanizmlərinin əksər beynəlxalq hüquq-konsaltinq qurumlarının rəhbərliyində təmsil olunan, araşdırmaçı jurnalist şəbəkəsinin idarə heyətinə gəlib çıxan, dünya erməni xeyriyyə təşkilatına prezidentlik etmiş Aleksandr Papaxristou, ölkəmizdəki 5-ci kalonun vəkili, beynəlxalq şirkətin rəhbəri Amal Kluni və başqaları tərəfindən hazırlanması və tətbiqi yönündə miqyaslı lobbiçilik fəaliyyətinin reallaşdırılması göstərilib.

❖ Hibrid “leqal müharibələr”in (“legal warfare”) dünyada/Avropada ilk dəfə Azərbaycana qarşı tətbiq edilməsinin səbəbləri (Şübhəli Fəaliyyət Hesabatı (Suspicious Activity Report), Siyasi Əhəmiyyətli Şəxs (PEP – Politically Exposed Person), İzahedilməmiş Sərvətlərə dair Məhkəmə Əmri (Unexplained Wealth Order – UWO) sırasında müstəsna olaraq, Azərbaycanın imic itkisinə nail olmağa çalışan “qlobal erməni milləti”nin ortaq fəaliyyəti nümunələr əsasında təqdim edilib.

❖ Hibrid “leqal müharibələr”in (“legal warfare”) digər istiqaməti kimi Azərbaycanda 5-ci kalonun erməni vəkil mafiyasının (Amal Kluni), qlobal insan hüquqları şəbəkəsinin (Harri Kasparov) və s. kimi şəxsən himayə edərək “pro bono”-havayı, ödənişsiz müdafiəsinin, AİHM-də “mütləq” qələbəsinin təmin edilməsinin davamlı ənənəyə çevrilməsinə nail olması əsaslandırılıb.

❖ BMT-nin, eləcə də beynəlxalq insan hüquqları təşkilatlarının illik hesabatlarında əsas kimi götürülən qlobal "İnsan Hüquqları Fondu"nun (ABŞ; H.Kasparov) rəyinin qərəzli olması, sonuncunun bu istiqamətdə yeni mərhələ kimi olduqca geniş fəaliyyətinin ölkəmizdə naməlum olması və Azərbaycan üçün təhdidləri əks etdirilib. Vətən müharibəsi gedişində "Hadrut edamı" adı ilə "Azərbaycanın hərbi cinayətləri" kimi quraşdırılan və tirajlanan saxta videokadrları hazırlayan "Bellingcat" özəl kəşfiyyat agentliyini H.Kasparovun "İnsan Hüquqları Fondu" tərəfindən maliyyələşdirilməsi faktlarla təqdim edilib.

❖ Tədqiqatda ilk dəfə istər araşdırmaçı jurnalistika, istərsə də insan hüquqları sahəsində şəbəkəni nəinki maliyyələşdirən, eləcə də kiberinqilab yolu ilə sabitliyi pozmağa hesablanmış ümumdünya şəbəkəsini yaradan "meqa-sponsorlar" - şəxslər və qurumlar sırasında erməni diasporunun, erməni kökənli tech-milyarderlərin (Pyer Omidyar, Aleksis Ohanyan və s.) olması üzə çıxarılıb.

❖ Hesabatda Azərbaycan-UNESCO münasibətlərinin yüksək səviyyədə olmasından narahat olan "qlobal erməni milləti"nin səfərbər olaraq, BMT-nin bu təşkilatına 2-3-cü nəsil erməni gətirməsinə nail olması, UNESCO baş direktorunun atasının dünyada ən böyük erməni xeyriyyə təşkilatının Prezidentlər Şurasının sədri, anasının erməni kökənli olması yer alıb.

❖ Hesabatda Ermənistanın bir "layihə-dövlət" olması, gerçək Ermənistan kimi isə Fransa dövlətinin "qlobal erməni millətin" episentri və himayədarı qismində çıxış etməsinin son dövrdə olduqca intensivləşmə səbəbləri açıqlanıb. Bu ölkədə yüksək siyasi postlarda, meriyalarda, məsələn, Parisdə (A.İdalqo) və Strasburqda (J.Barseqyan) erməni qadınların olması, bu meriyaların, mənzil qərargahı Parisdə yerləşən UNESCO-nun Azərbaycana qarşı ən qərəzli "Sərhədsiz Reportyorlar" "hüquq" təşkilatını maliyyələşdirməsi göstərilir.

❖ Fransanın rəsmi dövlət səviyyəsində vətən xaini mühacir Məhəmməd Mirzəlinin müdafiə və təminatını üzərinə götürməsi, Azərbaycan əleyhinə növbəti "dissident" fiqur düzəldilməsi yönündə onu tam himayə edəcəyini bəyan etməsi, onun sosial şəbəkələrdə 24/7 rejimində təbliği üçün tam bir erməni heyətlə təmin edilməsi, hazırda ölkəmizdə sabitliyi pozmaq üçün kriptovalyuta ilə maliyyələşdirilən şəbəkəsinin formalaşdırılması, kiberinqilab üslubunda kütləvi aksiyalara çağırışlar etməsi və s. çoxsaylı faktlar təhlil edilib.

❖ Analitik hesabatda ölkəmizdə milli birliyin ən yüksək səviyyədə olduğu şəraitdə, yeganə çıxış yolu kimi xaricdəki vətən xainləri - "mühacir blogerlər"in və 5-ci kalonun sabitliyi pozmaq üçün həlledici qüvvəyə çevrilməsi yönündə "qlobal erməni milləti"nin hərəkətə keçməsi, maliyyəni əsirgəməməsi, nəzarətdənkənar kriptovalyuta ilə təmin edilməsi yönündə çoxşaxəli planların qurulması araşdırılıb.

❖ Hazırda "qlobal erməni milləti"nin aparıcı fiqurları, aktorları və strategiyasının həyata keçirilməsinin istiqamətləri, muzdlu "araşdırmaçıları", beynəlxalq insan hüquqları qurumlarına sızmış şəbəkəsinin informasiya inqilabının verdiyi ən yeni imkanlar - kriptovalyuta ilə maliyyələşdirmə, sosial partlayışların törədilməsi üçün süni intellektin tətbiqi ilə deep-fake (reallığa tam bənzər) saxta xəbərlərin "zenit artilleriyası" (N.Xomski) formatında fasiləsiz tirajlanması, qlobal haker hücumu əməliyyatlarının tətbiqi ilə milli kritik infrastruktura zərbələr endirməyə qədər hesablanmış niyyətlərinin həyata keçirilmə ehtimalları nəzərə alınmaqla, ölkəmiz üçün mümkün təh-

didlərin dəf edilməsi, müvafiq preventiv-sistemli-kompleks əks tədbirlərin həyata keçirilməsi üçün təklif və tövsiyələr təqdim edilib.

❖ Dövlət başçımız siyasi liderlik fəhmi, strateji təfəkkürü və dövlətçilik duyğusu ilə baş verən fövqəladə dəyişikliklərdən xəbərdar olmaqla, ölkəmizə qarşı fəaliyyət aparan qlobal şəbəkə, onun gənclərimizi manipulyasiya etmək, cəmiyyətə saxta xəbərlər tirajlamaqla müstəqil siyasətimizə təsir göstərmək və sabitliyimizi pozmaq səylərinə çıxış və nitqlərində dönə-dönə toxunur.

❖ Vətən münaribəsi gedişində onun xarici telekanallara verdiyi onlarla müsahibə informasiya savaşının ön cəbhəsində düşmən hücumlarını dəf etməyə hesablanmışdı.

❖ Prezident İlham Əliyevin informasiya savaşında örnək nümunəsi hazırkı informasiya savaşının miqyası, təhdidlərin fövqəladə çoxluğu və İKT inqilabının verdiyi imkanlar nəzərə alınmaqla 10 milyonluq xalqımızın, hər bir vətəndaşın həyat tərzinə çevrilməlidir.

❖ Mövzu kontekstində 2021-ci ildə Türkiyə Cümhuriyyətinin Prezidenti R.T.Ərdoğanın ictimai-siyasi leksikona gətirdiyi "kibervətən" ifadəsi və çağırışı geniş müzakirə edilib. R.T.Ərdoğan müasir dövrdə dövlətlərin suverenliyinin fiziki sərhədlərdən çox rəqəmsal məkanda da hücuma məruz qaldığını ifadə edərək qeyd edib: "Vətənimizin müdafiəsini genişləndirərək, dənizdə mavi vətən olduğu kimi, rəqəmsal dünyadakı "kibervətənimizi" də buraya daxil edəcəyik. Ölkələrin suverenliyinin artıq rəqəmsal terror və hücuma məruz qalması son dövrlərdə baş verənlərin rəqəmsal faşizmin cəsarətinin nə qədər uzaqlara gedə biləcəyini ortaya qoyub. İnformasiyaya hakim olanlar demokratiyanı, qanunu və hər cür hüquq və azadlıqları gözardı edərək öz rəqəmsal diktaturalarını qura bilərlər. Bu gün bizim üzərimizə düşən rəqəmsal faşizm, kiberimperializm və qlobal saxta xəbər sənayesinə qarşı ortaq informasiya istehsalı və yayım kanallarımızı gücləndirməkdir. Mədəniyyət, incəsənət və s. məzmun istehsalının ən vacib hissəsidir".

❖ Araşdırmaçı şəbəkənin fəaliyyəti informasiya hücumu strategiyasının tərkib hissəsidir. Burada birtərərli yönəldilən təbliğat da əsas məsələdir. Ədəbiyyatda Edvard Herman və Noam Xomskinin mediada "təbliğat modeli" nəzəriyyəsi geniş yayılıb. Bu, mediada sistematik yalanların mövcudluğunu təsdiq edən və onları iqtisadi səbəblərlə izah edən nəzəriyyədir. Sitat: "Təbliğat modeli baxımından mediaya xəbər, informasiya deyil, oxuculara, hökumətə və s. auditoriyaya mal satan müəssisələr kimi baxılır. Yəni əgər siz oxuduqlarınız üçün pul ödəməmisiniz, yaxud ödəməyəcəksinizsə, o zaman başqası pul ödəyib ki, siz bunu oxuyasınız və ya ödəyəcək ki həmişə oxuyasınız".

❖ N.Xomskinin təbliğat modelində ən vacib digər məqam informasiyanın effektivliyi üçün onun zenit artilleriyası kimi fasiləsiz və total tirajlanmasının zəruriliyidir. Bu da bahalı işdir. Amerikalı alim N.Xomskiyə görə, Ağ Ev, Pentaqon və Vaşinqtondakı Dövlət Departamenti bu cür xəbər fəaliyyəti üçün mərkəzlərdir. Onlara "zenit artilleriyasının" - informasiya hücumunun istehsalı üçün xüsusi məqsədlə təşkil edilmiş qurumlar kimi baxmaq olar. Daha geniş dizaynlı "zenit artilleriya" - saxta xəbər istehsal edən və tirajlayan digər bir köhnə maşın "Freedom House"-dur. Yaradılması 1940-cı illərin əvvəllərinə təsadüf edən "Freedom House" AIM, Dünya Antikommunist Liqası, Beynəlxalq Müqavimət Təşkilatı, Azad Avropa Radiosu və CIA kimi ABŞ dövlət qurumları ilə əlaqəli olub, uzun müddət hökumətin virtual təbliğat qolu kimi fəaliyyət göstərib .

❖ Azərbaycanı hədəfə alan qlobal araşdırmaçı şəbəkənin informasiya inqilabı və süni intellekt texnologiyaları ilə silahlanaraq, daha aqressiv hücumlar təşkil edəcəyinə heç bir şübhə yeri yoxdur. Xüsusilə də, indiyə qədərki "ənənəni" nəzərə alsaq, siyasi təqvimin fəallığı, prezident, yaxud parlament seçkiləri ərəfəsində bu hücumların intensivləşəcəyi məlumdur.

❖ Baş verən proseslərdə nəzərə çarpmayan bir məqam, yaxud mifoloji "Pandora qutusu"ndan ən sonda çıxan "ümid" hesab edilə bilər. Bu, hibrid müharibənin, siyasi və iqtisadi sistemin, geosiyasi qarşıdurmanın alternativi olmayan resursu - "saxta, yaxud doğru informasiya" və informasiya məkanı uğrunda başlayan ölüm-dirim savaşıdır. Bu savaş hazırda informasiya və virtual məkanın sahibi olan qlobal IT nəhəngləri və ABŞ dövləti arasında gedir. Oktyabr ayında sosial şəbəkələrin çökdürülməsi, "Pandora", "Facebook" dosyesi və s. "aysberqin yalnız görünən üzü" və baş məşqdir. Yəni savaşda bir tərəfdə ABŞ-ın yaratdığı qlobal şəbəkə - OCCRP, onun arxasında dayanan CIA, "Silikon vadisi" meqa-donorları, digər tərəfdə Facebook, Tvitter, Instagram və s. üz-üzə durub.

❖ Aparılan araşdırma göstərir ki, ümumilikdə gerçəklikdə Ermənistan dövlət deyil, bir layihədir və əsl Ermənistan Prezident Sarkisyanın "qlobal millət" adlandırdığı şəbəkələşmiş dünya erməniliyidir. "Qlobal erməni milləti": 1.aşkar ermənilər; 2.erməni diasporu; 3.çoxsaylı ölkələrdəki 2-3-cü nəsil ermənilər; 4.Ermənistanın dostu olan ölkələr və 5. dünya erməni diasporunun muzdlularından ibarətdir. Onların istinad nöqtəsi qismində isə Fransa dövləti, dünya erməni diasporu çıxış edir.

❖ İllərlə Qarabağ və Ermənistanın siyasi korrupsiya rejiminə milyardlar ayıran dünya erməniliyi son illərdə, xüsusilə də Qarabağdakı məğlubiyyətdən sonra bütün maliyyəsini qlobal araşdırmaçılığa, insan hüquq-müdafiə təşkilatlarında şəbəkələşməklə, Azərbaycanın "demonizasiyasına", onu informasiya məkanında nüfuzdan salmağa yönəldib.

❖ UNESCO nümunəsi bunu bir damla suda olduğu kimi əks etdirir. BMT təşkilatının Azərbaycanla yüksək səviyyəli münasibət qurmasından doğan qısqanclığa baş direktora qarşı "Panama" və s. saxta məlumatlarla kampaniya başladıldı. Vətən müharibəsində "UNESCO-nun erməni üzü", Azərbaycana qarşı qərəzli mövqeyi tam çılpaqlığı ilə ortaya çıxdı. Erməni vandalizmi ilə bağlı tam susqunluq nümayiş etdirildi. UNESCO adlanan təşkilatın ermənilərin təzyiqi altında olduğu reallıqdır.

QEYDLƏR

QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ